Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

17 DEKABR 2019-cu il

№ 224 (4122)

Qiymәti 40 qәpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

səh. 3

# DÜNYANIN ƏN GÜCLÜ ÖLKƏLƏRİ ARASINDA 45-Cİ - AZƏRBAYCANIN DÖVLƏT GÜCÜNÜN ƏSAS ELEMENTLƏRİ...

Ermənistan siyasi qüvvələri Paşinyanın Qarabağ siyasətinə təzyiqi artırır
səh. 9

Rusiya senatoru azərbaycanlı Fərhad Əhmədovun dövlətlərarası müstəvidə bu qədərmi nüfuz gücü var?
səh. 6

Senatın saxta "erməni genosidi"ni tanımasına əks silah tapıldı - ABŞ-da hindular necə soyqırım edilib...
səh. 10

Seçkidən imtina edən partiyalardan "sosial bazasızlığınızı gizlətmək istəyirsiniz" ittihamlarına cavab - Azad Demokratlar Partiyası...
səh. 5

Oqtay Gülalıyevin durumunda irəliləyişlər bəzi radikalları siyasi ittiham kartı ələ keçirməkdən məhrum etdi...
səh. 6

Aprel qəhrəmanı olmaq insanlara qarşı cinayət və özbaşınalıqlara əsas verirmi...
səh. 12

Aqrar sahəmizin bir sıra ənənəvi problemləri çözülməyə başlayır
səh. 11

Azərbaycan turizmində yeni etap - Bakıda və regionlarda 3 ulduzlu otellərin dövranı başlayır
səh. 15




səh. 5

## Saxta «erməni genosidi»nin tanınmasının arxasında ABŞ-ın Ermənistanı Rusiya cazibəsindən çıxarmaq niyyətləri - Ermənilərin Rusiyanı Türkiyə ilə bir sıraya qoyması...



MM-in buraxılmasına məmnuniyyətlə səs verən deputatların bəzilərinin yenidən ifadə etdikləri deputatlıq iddiası - məntiqsizlik hardadır...
səh. 4

Avrasiyanın geosiyasi mənzərəsini formalaşdıran Türkiyə-Rusiya tandemində Azərbaycan həlledici tərəfə çevrilmək üzrə...
səh. 8




Mühacir biznesini araşdıran Almaniya müstəntiqləri Müsavat Partiyasının qərargahında...(?)...
səh. 7

səh. 12
Səttar Möhbalıyev Brüsseldə nüfuzlu beynəlxalq təşkilatın vitse-prezidenti seçildi...



səh. 3
Aydın Quliyev ABŞ analitiklərinin Azərbaycan dövlətinin gücünə verdikləri qiyməti şərh etdi...



səh. 4
Türk dünyasının müasir diplomatiyasının əsas hədəfləri və nailiyyətləri - Azərbaycan millət vəkilinin mülahizələri...



səh. 13
DİM-in test imtahanlarında "saxta əvəzedicilər" cinayəti - bu necə mümkün olur...



səh. 14
Gələn ildən tətbiq olunacaq icbari tibbi sığortada həkimləri narazı salan nədir...



# Prezident İlham Əliyev "Azərenerji" ASC-nin prezidentini qəbul edib

**Prezident İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) prezidenti Baba Rzayevi qəbul edib. Ölkəmizdə elektrik enerjisinin istehsalının, istehsal güclərinin artdığını bildirən Prezident İlham Əliyev deyib ki, son illərdə bir çox yeni elektrik stansiyaları tikilib.**

Hazırda Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir və eyni zamanda, ixrac imkanları da yaradılıb. İlk növbədə, "Şimal-2" Elektrik Stansiyasının fəaliyyətə başlamasını önəmli hadisə adlandıran Prezident gücü 400 meqavat olan stansiyanın fəaliyyəti ilə maraqlanıb.

Baba Rzayev deyib ki, bu, Cənubi Qafqazda yük rejimindən asılı olaraq 214-216 qram xüsusi şərti yanacaq işlədən yeganə yarımstansiyadır. Yəni çox qənaətcildir və onun faydalı iş əmsalı 57,4 faizdir. İl ərzində 3,2 milyard kilovat-saat enerji istehsal edir.

Daha sonra Prezident "Azərbaycan" İstilik Elektrik Stansiyasının təmir-bərpa işləri barədə soruşub. Baba Rzayev deyib ki, beş blokda yenidənqurma işləri artıq başa çatıb. Bundan başqa, 500 kilovoltluq açıq paylayıcı qurğu tamamilə yenidən qurulub, 330 kilovoltluq paylayıcı qurğuda isə işlərin 80 faizdən çoxu icra olunub. Bu, qəzaların qarşısını tamamilə almağa kömək edəcək.

Stansiyanın strateji obyekt olduğunu xatırladan Prezident deyib ki, keçən ilin yayında baş vermiş qəza, əlbəttə ki, bizə çox baha başa gəldi. Bundan həm bizim vətəndaşlar əziyyət çəkdilər, metroda qalanlar oldu, həm də sənaye müəssisələri ziyan çəkdi. Ona görə qəzanın səbəblərinin araşdırılması üçün komissiya yaradıldı və səhlənkarlığa, pozuntulara yol verən bütün vəzifəli şəxslər işdən kənarlaşdırıldı. Ona görə məhz bizim strateji obyektimiz olan Mingəçevir Elektrik Stansiyasının bərpası və qəzadan özümüzü sığortalamaq məsələləri "Azərenerji"nin yeni rəhbərliyi qarşısında əsas vəzifə kimi dayanmışdır. Eyni zamanda, 400 meqavat gücündə olan "Şimal-2" stansiyasının məhz Bakıda inşa edilməsi bizim enerji generasiya güclərimizin ölkə ərazisində daha bərabər şəkildə paylanmasına xidmət göstərir.

"Sevindirici hal ondan ibarətdir ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlər öz aralarında rəqabət aparırlar. Vaxtilə biz investorları inandırmağa çalışırdıq ki, gəlib vəsait qoysunlar. Ancaq indi investorlar özləri maraq göstərirlər" - deyən Prezident İlham Əliyev bildirib ki, tenderin qalibini açıq və şəffaf tender şərtlərinə uyğun müəyyən etməliyik:"Çünki söhbət təqribən 400-500 meqavat gücündə bərpaolunan elektrik stansiyalarının inşasından gedir".



Keçən il Azərbaycanda dövlət xətti ilə yaradılmış külək elektrik stansiyasının fəaliyyətilə maraqlanan Prezidentə bildirilib ki, Bakı-Quba magistralının sağ tərəfində - təzə yolla köhnə yolun arasında 84 meqavat gücündə Şurabad Külək Elektrik Stansiyasının artıq bütün layihə-smeta sənədləri hazırlanıb, torpaqların alınması, ötürmə xətləri məsələləri həll edilib və "Vestas" şirkəti bu işə cəlb olunub.

Prezident İlham Əliyev hazırda buna ehtiyac olduğunu deyib:"Çünki bizim indi generasiya gücümüz daxili tələbatdan daha böyük həcmdə istehsal olunur. Bu da təbiidir. Çünki həmişə bizdə ehtiyat olmalıdır və eyni zamanda, yaradılmış şərait imkan verir ki, biz elektrik enerjisini ixrac edək və bu gün bu sahə ölkəmizə valyuta gətirir. İxrac da olmalıdır, daxili tələbat da təmin edilməlidir. Ancaq biz hamımız onu da bilməliyik ki, daxili tələbat artır və artacaq. İlk növbədə, artan əhali təbii ki, yeni güclərin işə salınmasını diktə edir, digər tərəfdən, ölkəmizə gələn xarici qonaqlar, onların sayı artıq bu il 3 milyonu keçibdir və təbii ki, bu xidmət sektorunda mövcud olan enerji potensialı daha da artmalıdır və əlbəttə ki, əsas məsələ artan sənayedir. Bu il qeyri-neft sektorumuzda sənaye istehsalı 14 faiz artıbdır və bizim sənayeləşmə ilə bağlı olan digər layihələr bu gün reallaşır. Sənaye parkları, sənaye zonaları, yeni sənaye müəssisələri yaradılır ki, bütün bunlar enerji tələb edir. Ona görə biz öz strateji addımlarımızı elə atmalıyıq ki, daim Azərbaycanın tələbatı, o cümlədən sənaye istehsalı ilə bağlı olan tələbat enerji generasiya gücləri ilə, yarımstansiyalarla, ötürücü xətlərlə təmin edilsin ki, heç bir problem olmasın. Necə ki, bu gün heç bir problem yoxdur. Ona görə əminəm ki, gələn il də "Azərenerji" və onun bütün kollektivi öz vəzifə borcunu ləyaqətlə yerinə yetirəcək və Azərbaycanda enerji dayanıqlılığı daim təmin ediləcəkdir".

## Respublika Xatirə Kitabı və "Bakı-Xəbər" daha bir Milli Qəhrəman haqda kitab hazırlığına başladı

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabın hazırlanmasına start verdik.**





Yaxın zamanlarda "Bakı-Xəbər" qəzetinin səhifələrində hissə-hissə oxuculların ixtiyarına veriləcək, sonda ümumiləşdiriləərək çap olunacaq növbəti kitabımızda Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edəcəyik.

...Füzulinin həyat yolu, paralel olaraq bütün soydaşlarımızın ürəyində qubar bağlamış Xocalı harayının ayrılmaz bir parçasıdır. Füzulinin Vətən sevgisi heç bir ekvivalentlik tanımayan örnəkdir. Füzulinin ölümü saysız-hesabsız xocalılının ölümdən qurtuluşudur. Füzulinin qeyrəti azərbaycançılığın əbədi yaşayacağı yolda heç vədə solmayacaq məşəldir. Füzuliyə etibarlılıq dastanlara sığmayacaq həqiqətdir. Füzulinin ruhusa Xocalı göylərində sərgərdandır...

...Ölkəmizin hər tərəfinə dağılmış xocalılıları, Xocalıda döyüşmüş başqa bölgələrdən olan döyüşçülərimizi dinləmək, dediklərini, xatirələrini yazıya almaq üçün axtarışlara çıxmışıq. Məqsədimiz nəhayətdə bu bütöv xarakterin bütün parametrlərini açmağa nail olmaqdır. Yolçuluğumuz uzundur. Bir başı Göygöl rayonunun Ağcakəndi, Füzulinin uyuduğu Tərtər rayonunun Hüsənli kəndi, bir başı paytaxtın Yasamal, Mərdəkan, Pirşağı qəsəbələri, Sumqayıt şəhəri, hətta Mesxeti türklərinin yaşadığı Sabirabad rayonu və daha haralar... Bir Vətən oğlunun Vətənimiz, soydaşlarımız, dost-tanış, namus-qeyrət uğrunda göz qırpmadan, çəkinmədən həyatından keçməsinin ən azı qiyabi şahidləri ola bilmək şansını, yəqin ki, əldən verməyəcəksiniz... Elə isə ardıcıl yazılarımızı gözləyin.

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***

# Ermənistan DQ-də azərbaycanlıların yaşadığını inkar etdi, Tural Gəncəliyevdən zərbə aldı...

**Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev son günlər Ermənistan hakimiyyətinin nümayəndələrinin Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların guya heç vaxt yaşamadığı və bölgədə iki icmanın mövcud olmadığı haqqında əsası olmayan fikirlərinə münasibət bildirib.**



İcma sədri "Trend"ə bildirib ki, Azərbaycanın torpaqlarını işğal edən, Xocalı soyqırımını törədən, işğal altındakı ərazilərdə xalqımıza məxsus mədəni, dini, tarixi abidələri məhv edən Ermənistanın ayrıseçkilik (aparteid) siyasəti aparması, bu ölkənin illərdir həyata keçirdiyi ideologiyanın təzahürüdür: "Qeyd etməliyəm ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin cari il ərzində regiona iki səfəri reallaşıb və Dağlıq Qarabağın azərbaycanlı icması ilə həmsədrlər arasında görüşlər keçirilib. Keçirilən görüşlərdən sonra həmsədrlərin bəyanatlarında Dağlıq Qarabağın azərbaycanlı icması erməni icması ilə bərabərhüquqlu (!) maraqlı tərəf kimi bir daha qeyd edilib. Bu isə yeni fikir deyil və 1992-ci ildən mövcud olan faktın bir daha Ermənistana xatırladılmasıdır. Rusiyanın Xarici işlər naziri Serqey Lavrov Azərbaycana son səfəri zamanı icmalararası dialoqu dəstəklədiyini qeyd edib.

Məhz bu gedişatlardan sonra Ermənistan tərəfinin "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması"nın mövqeyini həzm edə bilmədiyi özünü bürüzə verməkdədir. Ermənistan Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə inkar edir.

Birinci, artıq yuxarıda istinad edildiyi kimi, 24 mart 1992-ci il tarixində ATƏT-in Helsinki Nazirlər Şurasının sənədində əks olunan Dağlıq Qarabağın seçkili və digər nümayəndələri, məhz Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hər iki, yəni erməni və azərbaycanlı icmalarını nəzərdə tutur və onlar maraqlı tərəflər qismində qeyd olunur. Bu sənəddə Dağlıq Qarabağa ayrıca tərəf kimi istinad edilmir.

İkinci, 1 dekabr 1989-cu ildə Ermənistan SSR Ali Soveti Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında qanunsuz qərar qəbul etdikdən sonra, 10 yanvar 1990-cı il tarixində SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin "qərarlarının" SSRİ Konstitusiyasına uyğun olmamasını qeyd edərək, Ermənistanın Dağlıq Qarabağa yönəlik qanunsuz ərazi iddialarına son qoyur.

Üçüncü, BMT, digər beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Ermənistan tərəfinə ATƏT-in Minsk Qrupunun həmsəsrlərinin bəyanatlarını və müvafiq sənədləri öyrənməyi tövsiyə edirəm".

T.Gəncəliyev bildirib ki, Ermənistan hakimiyyəti Azərbaycana qarşı işğal siyasətinə son qoyarsa, Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərindən qovulmuş yüzminlərlə azərbaycanlının mövcudluğunu inkar etməzsə, iki icmanın bərabərhüquqlu icma olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sülh şəraitində birgə yaşamasına mane olmazsa, münaqişənin həlli mümkün ola bilər.

# Dünyanın ən güclü ölkələri arasında 45-ci - Azərbaycanın dövlət gücünün əsas elementləri...

**Amerikanın "U. S. News & World Report" jurnalı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısını açıqlayıb. Sözügedən reytinq ABŞ-ın ən nüfuzlu siyasi nəşrlərinin birinin saytında dərc edilib. Siyahı Pensilvaniya Universitetinin "BAV Group i Wharton School" Qrupunun analitikləri tərəfindən tərtib edilib.**



## *Fikrət Yusifov: "Bu, ölkəmizin bir sıra göstəricilərə görə əhəmiyyətli dərəcədə irəliləməsi ilə bağlıdır"*

Siyahı tərtib edilən zaman ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi, habelə beynəlxalq təşkilatlara üzvlük və iştirakı daxil olmaqla bir sıra amillər nəzərə alınıb. Yəni sözügedən parametrlər əsasında reytinq cədvəli hazırlanır.

Siyahıda Azərbaycan 45-ci yerdə qərarlaşıb. Diqqətçəkən məqamlardan biri odur ki, ölkəmiz cari ildə əldə etdiyi uğurlara görə bir neçə Avropa İttifaqı ölkəsini - Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoyub.

Reytinqə görə, ilk üçlükdə ABŞ, Rusiya və Çin olub. İlk onluqda isə Almaniya, İngiltərə, Fransa, Yaponiya, İsrail, Səudiyyə Ərəbistan və Cənubi Koreya da yer alıb.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan ötən illə müqayisədə 19 pillə irəliləyib. 2018-ci ildə hazırlanan siyahıda Azərbaycan 64-cü yerdə idi.

Bütün bunların fonunda, Azərbaycanın dünyada 80 ölkə arasında 45-ci olması nə deməkdir? Bu zaman nə başa düşülür?

Sözügedən məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifov bununla bağlı bir sıra məqamlara aydınlıq gətirdi: "Azərbaycanın 80 ölkə arasında gücünə görə 45-ci olması bir sıra göstəricilərə görə əhəmiyyətli dərəcədə irəliləməsi ilə bağlıdır. Bunun başlıca səbəbi ölkədə aparılan sistemli islahatlardır. Görünən odur ki, ortada islahatların ciddi nəticəsi var. Bu onu göstərir ki, islahatların nəticələri getdikcə yaxşılaşır və miqyası böyüyür. Məsələ ondadır ki, son vaxtlar ərzində beynəlxalq maliyyə institutlarının hesabatlarında Azərbaycan kifayət qədər irəliləyişə nail olub. Bu, Prezident İlham Əliyevin apardığı siyasətin nəticəsidir ki, ölkə iqtisadiyyatı son iki ildə daha da inkişaf edib. Xüsusilə son 15 il ərzində görülən tədbirlər, aparılan islahatlar, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına verilən dəstək, onun xüsusi çəkisinin artması buna öz təsirini göstərib. Təsadüfi deyil ki, bütün bunlar beynəlxalq təşkilatların diqqətini cəlb edir. Nəticələr də göz qabağındadır. Bu il və gələn il biz Azərbaycanın ən böyük icmal büdcəsini qəbul etdik.

*"2017-ci illə müqayisədə dövlət büdcəsinin xərcləri hardasa 60 faizə qədər artdı"*

Bu nə deməkdir? Bu o deməkdir ki, 2017-ci illə müqayisədə dövlət büdcəsinin xərcləri hardasa 60 faizə qədər artdı. Yəni iki il ərzində büdcə xərclərinin 60 faiz artması o deməkdir ki, ölkə iqtisadiyyatının dayanıqlığı kifayət qədər güclüdür. Faktlar və rəqəmlər göz qabağında olduğuna görə bütün bunlar beynəlxalq təşkilatların diqqətini çəkir. Onlar da bu faktlara və rəqəmlərə söykənərək Azərbaycandakı iqtisadi, sosial duruma qiymət verirlər və bu reytinq pillələrində Azərbaycan daha da önə çəkilir. Bütün bunlar kompleks şəkildə Azərbaycanın güclü ölkələr arasında yer almasını şərtləndirən başlıca faktordur".

***Vidadi ORDAHALLI***

# Aydın Quliyev ABŞ analitiklərinin Azərbaycan dövlətinin gücünə verdikləri qiyməti şərh etdi...

**Dünyanın güclü ölkələri arasında Azərbaycanın 45-ci yerdə qərarlaşması real əsaslara malikdir və hər bir vətənpərvər azərbaycanlı üçün qürurvericidir. Bu barədə "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev Amerikanın "U. S. News & World Report" jurnalının 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısını şərh edərkən deyib.**




## *"Azərbaycan müasir dünya dövlətçiliyinə xas olan bütün güc göstəricilərinə nail olub"*

Onun sözlərinə görə, bu yüksək reytinqin Amerikanın peşəkar analitiklərinin qəti rəyi əsasında hazırlanması onun mötəbərliyini daha da artıran faktordur: "Siyahını tərtib edən Pensilvaniya analitikləri elə meyarlara söykəniblər ki, bugünkü Azərbaycan dövlətinin əldə etdiyi nəticələrə adekvatdır və dövlətimizin güc göstəricilərini əks etdirir. Əslində, Pensilvaniya mütəxəssislərinin öz tədqiqatları üçün əsas götürdükləri meyarların, demək olar ki, hər biri üzrə Azərbaycan indiyə qədər ən müxtəlif beynəlxalq reytinq təşkilatlarının fərqləndirici qiymətlərinə dəfələrlə layiq görülüb və bu amil Pensilvaniya analitiklərinin gəldiyi qənaətlərin həqiqilik gücünü daha da artırır.

Amerika təhlilçilərinin istinad etdikləri meyarlardan biri ölkələrin iqtisadi vəziyyətidir. Bu meyar üzrə Azərbaycanın üstün nailiyyətləri bütün beynəlxalq platformalarda, xüsusən Davos Forumu tərəfindən dəfələrlə təsdiq edilib. Ölkəmizin qlobal rəqabət müstəvisində dözümlülüyə görə dəfələrlə ən öncüllər sırasında olması da təkzibolunmaz faktlardan biridir. Hərbi güc kriteriyası üzrə gələnən nəticənin təsdiqi baxımından Azərbaycanın dünyanın ən güclü 50 ordusu sırasında özünə yer alması qeyd etmək olar. Pensilvaniya mütəxəssislərinin siyasi təsir dairəsinə görə apardıqları araşdırmada Azərbaycana yüksək qiymət verməsinin ayrıca əsasları var. Ərazisi kiçik, əhalisi az, dənizlərə birbaşa çıxışı olmayan Azərbaycanın bütün Avrasiya miqyasında hansı siyasi təsir roluna sahiblənməsini dünyada hamı görür. BMT Təhlükəsizlik Şurasının müvəqqəti sədrliyi, Qoşulmama Hərəkatına sədrlik, Türkdilli dövlətlər Birliyində sədrlik, Avrasiyanın enerji, nəqliyyat, tranzit və logistika mərkəzinə çevrilmsi və bu kimi çoxlu sayda əhəmiyyətli faktorlar həqiqətən Azərbaycanın geniş və güclü siyasi təsir dairəsinə malik olmasından xəbər verir. NATO və Rusiyanın dünyanın taleyi üçün önəmli qərarları məhz Bakıda verməsi ölkəmizin həqiqətən mühüm siyasi təsirə malik olduğunu ifadə edir. 2016-cı ildə Türkiyə və Rusiyanın açıq qarşıdurma münasibətlərinin həllində Prezident İlham Əliyevin həlledici mövqe tutması həqiqətən ölkəmizin güclü siyasi təsir mövqeyinin göstəricisidir".

Ekspert bildirib ki, bir sıra məsələlərdə Azərbaycanın dünya liderliyi səviyyəsinə çatması da reallıqdır: "Ümumdünya mədəniyyətlərarası və sivilizasiyalararası dialoqda Azərbaycanın təsdiqlənmiş böyük rolu, dünyanın enerji təchizatına verdiyi töhfələr, postneft iqtisadiyyatının əsaslarının uğurla yaradılması ölkəmizin dünya liderləri arasındakı yerini möhkəmləndirən nailiyyətlərdir. Azərbaycan beynəlxalq təşkilatların işində iştirakın miqyasına görə nəinki region ölkələri, hətta başqa qitələrin tanınmış ölkələri ilə rəqabət apara bilən göstəricilərə malikdir. Beynəlxalq təşkilatlarla iş müstəvisində Azərbaycan çox etibarlı ölkə kimi tanınır, saysız regional və qlobal təşkilatlarda fəaliyyət göstərir, təmsil olunduğu beynəlxalq təşkilatların gücünə güc qatır və bu təşkilatların boynunda Ermənistan kimi artıq yükə çevrilmir. Ölkəmiz beynəlxalq təşkilatların işini təkmilləşdirən çoxlu təklif və ideyalarla çıxış edir və bunların reallaşmasına nail olur. Bir sözlə, Azərbaycan müasir dünya dövlətçiliyinə xas olan bütün güc göstəricilərinə nail olub və bu nailiyyətin beynəlxalq rəylərdə əks olunması tamamilə adekvat nəticədir".

# MM-in buraxılmasına məmnuniyyətlə səs verən deputatların bəzilərinin yenidən ifadə etdikləri deputatlıq iddiası - məntiqsizlik hardadır...

***Samir Adıgözəlli:** "Seçki kampaniyası zamanı onlara alternativləri bu iradı mütləq bildirəcəklər"*

**Milli Məclis parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı müraciətini səsə qoyan zaman maraqlı nəticə əldə olunub.**

Deputatların böyük əksəriyyəti, demək olar ki, yekdilliklə YAP-ın qərarını dəstəkləmişdi. Hətta parlamentdə təmsil olunan və özlərini konstruktiv adlandıran müxalif partiyalar belə.

Həmin qərara açıq etiraz edən yalnız YAP-ın təmsilçisi olan və partiyanın klassik üzvlərindən sayılan Arif Rəhimzadə olub. Milli Məclisin sədri Oqtay Əsədov səsvermə gedən iclasda bildirib ki, həyata keçirilən islahatların sistemli xarakter daşıması, qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri, digər amillər qanunvericilik hakimiyyətində də islahatların dərinləşdirilməsini, parlamentin yenilənməsini zəruri edib. Milli Məclisin buraxılması ilə bağlı parlamentin Prezidentə müraciət etməsindən sonra komitə sədri Arif Rəhimzadə israrla söz istəyib. Spiker artıq müzakirələrin bitdiyini desə də, ona söz verib. A.Rəhimzadə qərarda əksini tapan bəzi məqamlara etiraz edib: "Məgər biz indiyədək parlamentdə elə bir şərait yaratmışıq ki, "krizis" yaranıb? Bir tərəfdən deyirsiniz ki, sosial şəbəkələrdə ədalətsiz fikirlər yayılır, digər tərəfdən özümüz belə müraciət qəbul edirik. İndi biz deyirik ki, yox, biz bacarmamışıq, pis işləmişik, gəlin bunu buraxaq. Buraxaq yox, yazmalıyıq ki, növbədənkənar seçkilərə gedək".

Təbii ki, A.Rəhimzadənin mövqeyi nəyisə dəyişmədi.

Artıq parlament buraxılıb və ölkədə növbədənkənar seçkilər təyin olunub. Ancaq həmin hadisədən doğan bir məntiqsizlik bizi bu mövzuya yenidən qayıtmağa vadar etdi. Parlament buraxılandan sonra passiv işlədikləri ilə bağlı qərara səs verən köhnə deputatların bir çoxu yenidən deputat olmaqla bağlı iddialarını ortaya qoyurlar. Burada belə bir məntiqsizlik yaranır: əgər bir deputat deputat kimi özlərinin məhsuldar işləmədiyini qəbul edirsə, hansı haqla yenidən deputat olmaq istəyir? Belə qənaətə gəlmək olarmı ki, A.Rəhimzadənin parlamentdə təmsil olunmaq haqqı digərlərinə nisbətdə daha çoxdur?

İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bir neçə dəfə məhz bu iradını sosial şəbəkədə bildirib: "Bilirsiniz, çox təəccüblüdür. Mən YAP-ı təmsil edən



deputatları hardasa başa düşürəm. Onlar əvvəl bu qərarı partiyada qəbul ediblər. Hər bir YAP üzvü qərara tabe olmalıdır. Ancaq bizim parlament yalnız YAP-çılardan ibarət deyildi axı. Orada özlərini müxalifət sayanlar, bitərəflər də kifayət qədər olub. Təbii ki, parlamentin buraxılması ilə bağlı qərara onların səsinin nəticəsi olmayacaqdı. Çünki çoxluq hakim partiya tərəfdədir. Heç olmasa, yaxşı işləməmişik kimi müddəalara bir etiraz edərdilər. Parlamentin buraxılmasını mən ikiəlli alqışlayıram və tam doğru qərar sayıram. Çünki bizə də orada təmsil olunmaq şansı daha tez yarandı. Ancaq bu qərarı dəstəkləyənlərin yenidən deputat olmaq istəməsini anlaya bilmirəm. YAP-dan kənar olan deputatlar passiv işlədikləri ilə bağlı "epiteti" qəbul ediblərsə, gəlib yeni parlamenti də əvvəlkinin gününə salmaq istəyirlər? Mən A.Rəhimzadənin mövqeyini bəyəndim. Öz fəaliyyətinə hörmət qoyulmasını tələb etdi. Elə adam var ki, özünə müxalifət deyir və orada əlini YAP-dan yuxarı qaldırıb, indi də deyir ki, məni yenidən seçin. Seçki kampaniyası zamanı onlara alternativləri bu iradı mütləq bildirəcəklər. Bizim dediyimiz kateqoriya deputatların bu məsələdən sonra uğurlu seçki kampaniyası aparmaq şansları da xeyli aşağı düşəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Türk dünyasının müasir diplomatiyasının əsas hədəfləri və nailiyyətləri - Azərbaycan millət vəkilinin mülahizələri...

***Elçin Mirzəbəyli:** "Qəbul olunan qərarlarda tərəflərin bir-birinə münasibətdə prinsipial mövqe sərgiləməsi..."*

**Milli Məclisin Səhiyyə komitəsinin sədri, TÜRKPA Ətraf mühit və təbii ehtiyatlar Komissiyasının sədri, akademik Əhliman Əmiraslanov "Türk dünyasında parlament diplomatiyası" başlıqlı geniş məqalə ilə çıxış edib.**



Məqalədə bir sıra məqamlara toxunulub. Qeyd olunub ki, ölkələr arasında müxtəlif sahələr üzrə qanunların yaxınlaşdırılması və əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində ən önəmli rolu parlamentlər həyata keçirir. Bu baxımdan, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) regional əməkdaşlıq platforması kimi türk əməkdaşlığının parlament səviyyəsində təzahürüdür. TÜRKPA Türk dünyasında çoxtərəfli əməkdaşlığın parlament səviyyəsində tək formasıdır.

Qeyd edək ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə TÜRKPA-nın təsisçi üzvləridir. Macarıstan Parlamenti 2014-cü ildən etibarən Assambleyanın fəaliyyətində müşahidəçi qismində fəal şəkildə iştirak edir. TÜRKPA digər türkdilli dövlətlərlə sıx qarşılıqlı əlaqələrin qurulmasında xüsusən maraqlıdır. Belə ki, Türkmənistan və Özbəkistan parlamentləri ilə təmasların qurulması prosesi davam edir. Türkdilli ölkələr arasında əməkdaşlığın parlament ölçüsü olaraq, assambleya üzv ölkələr arasında hüquqi, iqtisadi, sosial-mədəni, ətraf mühit və ortaq maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün hüquqi zəmin təmin edir. Təşkilatın ana xətti məhz inteqrasiya prosesinin inkişafı üçün qanunvericilik bazasının yaradılmasıdır.

Bütün bu deyilənlərin fonunda, Türk dünyasında parlament diplomatiyası özünü hansı nailiyyətlər formasında nümayiş etdirir və bu diplomatiyanın türk dövlətləri üçün nə kimi uğurlu nəticələri var?

*"Azərbaycan nümayəndə heyəti adətən bu proseslərdə fəal iştirak edir"*

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin fikrincə, Türk dünyasında parlament diplomatiyası müxtəlif formalarda öz uğurlarını göstərir: "Türkdilli ölkələr arasında inteqrasiya prosesinin güclənməsində TÜRKPA-nın rolu kifayət qədər böyükdür. Azərbaycan nümayəndə heyəti adətən bu proseslərdə fəal iştirak edir. Məlum olduğu kimi, növbəti ildən TÜRKPA-ya rəhbərlik Azərbaycana keçəcək. Azərbaycanda yeni parlament seçildikdən sonra bu sahədə proseslərin daha ardıcıl olacağını gözləyirəm. TÜRKPA bu baxımdan uğurlu bir formatdır. Ən azından, ona görə ki, qəbul olunan qərarlarda tərəflərin bir-birinə münasibətdə prinsipial mövqe sərgiləməsi, TÜRKPA çərçivəsində üzv ölkələrin qanunvericiliyinin bir-birinə uyğunlaşdırılması müsbət tendensiya yaradır. Artıq Özbəkistan da bu birliyə qoşulub. Hesab edirəm ki, bu uğurlu göstəricidir. Bununla yanaşı, TÜRKPA-ya müşahidəçi statusunda qoşulmaq istəyən dövlətlər də var. Onların arasında Koreya Respublikası da var. Bu baxımdan düşünürəm ki, perspektiv böyükdür. Bütün bunlar Türk dünyası parlament diplomatiyasının uğurlu fəaliyyətindən irəli gəlir".

***Vidadi ORDAHALLI***

Təəssüflə qeyd etmək lazımdır ki, ABŞ Senatı Osmanlı imperiyasında baş verən hadisəni "soyqırım" kimi tanımaq haqqında qətnamə qəbul etdi. Özü də yekdil bir şəkildə səsvermə nəticəsində.

# Saxta "erməni genosidi"nin tanınmasının arxasında ABŞ-ın Ermənistanı Rusiya cazibəsindən çıxarmaq niyyətləri - Ermənilərin Rusiyanı Türkiyə ilə bir sıraya qoyması...



Xatırladaq ki, bu ilin oktyabr ayında Nümayəndələr Palatasında bu qətnamə 405 səs lehinə, 11 səs əleyhinə qəbul edildi. O vaxt Senatın bu qərarı qəbul edəcəyi elə də inandırıcı görünmürdü. Çünki əvvəllər də bu qətnamənin qəbul edilməsi ilə bağlı cəhdlər olmuşdu və Senatda çoxluq təşkil edən respublikaçılar bunun əleyhinə çıxaraq təklifin keçməsinə imkan verməmişdilər. Nəticədə bu proses on illərlə davam etdi. Çünki ABŞ Türkiyə kimi bir tərəfdaş və NATO blokunun üzvü olan dövlətlə münasibəti pozmurdu. Lakin son vaxtlar Türkiyə-Rusiya yaxınlaşması və məlum "S-400" qalmaqalı və bir sıra siyasi məsələlər bu qətnamənin qəbul edilməsində mühüm bir rol oynadı.

Qeyd edək ki, ABŞ-ın, demək olar ki, ştatlarının hamısı saxta "soyqırımı" tanıyıb. Ancaq ABŞ-ın məhz bu məsələdə belə prinsipiallıq nümayiş etdirməsinin başqa səbəbinin olduğu da bildirilir. Bununla ABŞ Ermənistanı Rusiyanın cazibəsindən qoparmağa çalışır. Belə aydın mesaj verir ki, biz sizə görə ənənəvi müttəfiqimizlə də münasibəti korlamağa hazırıq. Bəs bunun müqabilində Ermənistan nə etməlidir? Ermənistandan da tələb edilir ki, onlar Rusiyadan aralanıb, ABŞ-a doğru konkret kurs götürsünlər. ABŞ-la Ermənistanın müəyyən dairələri arasında bu yöndə bir gizli sövdələşmənin olması da nəzərə çarpır. Bu sövdələşmənin nəticəsidir ki, Ermənistandan saxta "soyqırım" mövzusunda səslənən fikirlərdə Rusiyanın da bostanına daş atılmağa başlayıb. Həmin fikirlərdə iddia olunur ki, saxta "soyqırım"ı Türkiyə tək yox, Rusiyanın dəstəyilə törədib. ABŞ bununla Ermənistanı Rusiyanın əlindən alıb öz cazibəsinə sala biləcəkmi?

Ermənistanın inqilab nəticəsində hakimiyyətə gələn Baş naziri Nikol Paşinyan əvvəlcə anti-Rusiya mövqeli siyasətçi kimi tanınırdı. Hətta hakimiyyətinin ilk günlərində Rusiyaya yönəlik bəzi sərt addımlar da atmaq istədi. Buna misal kimi KTMT-nin Ermənistandan seçilən baş katibini həbsə atdırması oldu. Rusiyanın bir vassalının belə davranışlarına Moskva tərəfindən lazımınca qulaqburması verildi. Rusiyanın əlində Ermənistana təzyiq etmək üçün kifayət qədər təsir mexanizmlərinin olduğunu bilən Paşinyan bir az özünə yığışdı. Hətta ABŞ-ı sərt qəzəbləndirə biləcək bəzi addımlar da atdı. Buna misal kimi Rusiya ilə birlikdə Suriyaya sülhməramlı kontingenti göndərməsini göstərə bilərik. ABŞ-a məlum oldu ki, Paşinyan sırf Rusiyanın diqtəsi ilə oturub-duran bir marionet rolunu oynayır. Məhz buna görə də Paşinyan ABŞ-a etdiyi bir neçə səfəri zamanı rəsmi səviyyədə qəbul olunmadı. Hazırda da ABŞ-Ermənistan münasibətləri çox gərgin vəziyyətdədir. Ancaq hiss olunur ki, ABŞ bununla bağlı Ermənistana yönəlik bir layihə işə salıb. Rəsmi Vaşinqtonun saxta "soyqırım"a göstərdiyi diqqət nə qədər Türkiyə ilə aralarında olan narazılıqla bağlıdırsa, bir o qədər də Ermənistanı Rusiyadan qoparmağa hesablanıb. ABŞ bununla bağlı hətta Paşinyanı çətin vəziyyətdə qoya biləcək jestlər edir.

**Təbii ki, saxta "genosid"in müzakirəsilə bağlı daimi təşəbbüslər Ermənistan hakimiyyətindən yox, xaricdəki diasporundan gəlir. Dünyadakı güclü erməni diasporunun Ermənistan hakimiyyətinə ciddi təsiri var. ABŞ-ın bu jesti həm də diaspora imkan verəcək ki, Paşinyanı Vaşinqtona doğru oriyentir götürməklə bağlı dalana dirəyə bilsin.**

*Məhəmmədəli QƏRİBLİ*

**2020-ci il fevralın 9-na təyin olunmuş növbədənkənar parlament seçkisi kampaniyası 6 dekabrdan etibarən başlayıb. Artıq seçki kampaniyasının 10 günü arxada qalıb. Hazırda namizədlərin irəli sürülməsi, namizədlərə imza vərəqləri təqdim olunması, imza toplama mərhələsidir.**

# Seçkidən imtina edən partiyalardan "sosial bazasızlığınızı gizlətmək istəyirsiniz" ittihamlarına cavab - Azad Demokratlar Partiyası...

***Sülhəddin Əkbər:** "Deyilənlərin bizim partiyaya aid olmasını qəbul etmirəm"*



Seçki qanunvericiliyinə və Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi Seçki təqviminə görə, namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar sənədlər seçki komissiyasına təqdim edildəndən sonra 5 gün müddətində verilir. İmza vərəqlərinin verilməsi namizədliyin irəli sürülməsini təsdiqləyən qərar qəbul edildiyi gündən start götürür. Namizədin müdafiəsi üçün toplanan seçici imzalarının və təqdim edilən digər sənədlərin yoxlanması, qeydə alınıb-alınmama haqqında qərar sənədlər qəbul edildikdən sonra 7 gün müddətində rəsmiləşir. Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır.

İndiyə qədər bir sıra partiyalar seçkilərə qatılacaqlarını bəyan ediblər. Bunların içərisində radikal mövqedən çıxış edən partiyalar da var, konstruktiv mövqedən çıxış edən də. Ancaq seçkiləri boykot edən partiyalar da var. Hansı ki, onların bu addımı cəmiyyətdə birmənalı qarşılanmır. Məsələn, Milli Şurada təmsil olunan partiyalar, bundan başqa, Azərbaycan Xalq Partiyası, Azad Demokratlar Partiyası seçkidə iştirak etməmək haqqda qərar qəbul edib.

Ancaq cəmiyyətdə belə fikirlər var ki, bir sıra partiyaların yetərincə tərəfdarı olmadığına görə parlament seçkilərinə getməkdən imtina edirlər. Yəni seçkidən imtina edən partiyaların bəzilərinin heç bir sosial bazası yoxdur. Sadəcə, bunu etiraf etmək əvəzinə, müxtəlif bəhanələrlə çıxış edirlər ki, boykot qərarına haqq qazandırsınlar. Həmin siyasi təşkilatların bəzilərinin yerlərdə heç şöbələri belə yoxdur. Ancaq bu halda deyilənlərlə bağlı məsələyə aydınlıq gətirmək olar. Yoxsa, indi söylənən fikirlərin hamısı siyasi spekulyasiyadan başqa bir şey deyil. Bizim partiya

*"Sadəcə, seçkilər üçün əlverişli mühit olmadığına görə parlament seçkisinə getmədik"*

Sözügedən məsələ ilə bağlı Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərin fikirlərini öyrəndik. O, "Bakı-Xəbər"ə açıqlamasında deyilənləri qəbul etmədi: "Ölkədə azad və demokratik seçkilərlə bağlı həqiqətən də azad şərait yaransa, o zaman hansı partiyanın gücünün nə olduğu aydın olacaq.

2014-cü ildə yaradılsa da, kifayət qədər təşkilatlanıb. Qanuna görə, partiya təsis olunanda 50-dən yuxarı rayon təşkilatı yoxdursa, partiyanı təsis etmək mümkün deyil. Azad Demokratlar Partiyası təşkilatlananda 50-dən yuxarı rayon şöbəsi var idi. Yəni deyilənlərin bizim partiyaya aid olmasını qəbul etmirəm.

Sadəcə, seçkilər üçün əlverişli mühit olmadığına görə parlament seçkisinə getmədik. Partiyamız neçə ildir yaradılmasına baxmayaraq, rəsmi qeydiyyata alınmayıb. Bizim bununla bağlı şikayətimiz artıq neçə ildir Avropa İnsan Hüquqları Məhkəməsindədir və baxılmasını gözləyir. Hətta ölkədə güclü olduğu sayılan partiyaların belə fəaliyyəti gözlə görünmür. Hesab edirəm ki, buna imkan verilmir. Belə olan halda, o partiyaların fəaliyyəti necə görünə bilər? Ona görə də seçkilərdən partiyamızın imtina etməsinin onun zəif olması ilə bağlılığı barədə səslənən fikirləri qəbul etmirəm".

*Vidadi ORDAHALLI*

**Artıq bir neçə gündür Rusiyada yaşayan Azərbaycan əsilli milyarder Fərhad Əhmədovun sosial şəbəkələr vasitəsilə təklif etdiyi "yol xəritəsi" ətrafında gərgin müzakirələr gedir. Milyarderin təhqir və bəzən isə lağlağı ifadələrdən istifadə edərək, Azərbaycan cəmiyyətinə verdiyi "məsləhətlərə" münasibət birmənalı olmayıb.**

# Rusiya senatoru azərbaycanlı Fərhad Əhmədovun dövlətlərarası müstəvidə bu qədərmi nüfuz gücü var?

***Qabil Hüseynli:*** *"Amma hazırda Fərhad Əhmədov həmin nüfuzda deyil"*



Hətta bu mövqeyinə görə onu tənqid edənlər, qınayanlar da az deyil.

Maraqlıdır ki, məhz F.Əhmədovun adı ətrafında müzakirələrin getdiyi bir zamanda Türkiyənin Xarici İşlər naziri milyarderin böyük xidmətlərindən danışıb. Mövlud Çavuşoğlu müsahibəsində Ankara ilə Moskva arasında barışığın əldə edilməsi üçün vasitəçilik köməyi göstərənlərdən birinin də F.Əhmədovun olduğunu deyib. Çavuşoğlu iki ölkə arasındakı münasibətlərdə böhranın aradan qaldırılmasında bir çox şəxsin rolunun olduğunu qeyd edib. Bunların arasında Azərbaycan Prezidenti İlham Əliyevin, Dağıstanın sabiq rəhbəri Ramazan Abdulatipovun, Qazaxıstanın sabiq prezidenti Nursultan Nazarbayevin və azərbaycanlı iş adamı, Rusiya Federasiya Şurasının keçmiş üzvü F.Əhmədovun da yer aldığını deyib. Çavuşoğlunun sözlərinə görə, Dağıstanın sabiq rəhbəri R.Abdulatipov, habelə Tatarıstan rəhbəri Rüstəm Minnixaov kimi xadimlər doğrudan da səmimi səylər göstərdilər: "Nursultan Nazarbayevin xüsusən prosesin son mərhələsində oynadığı rol barədə dəfələrlə danışmışıq. Eyni səyləri Azərbaycan Prezidenti İlham Əliyev də göstərdi. Çünki hər iki ölkə - Qazaxıstan, Azərbaycan Türkiyəyə qardaş ölkələrdir. Türkiyə və Rusiya ilə münasibətlərinə də hər zaman önəm verirlər. Bu səbəbdən onlara bir daha təşəkkür edirik".

Çavuşoğlu bildirib ki, Azərbaycanda Əliyevdən başqa Xarici İşlər naziri Elmar Məmmədyarov da eyni şəkildə öz düşüncələrini ifadə edirdi. Türkiyə XİN rəhbəri danışıb ki, Fövqəladə hallar naziri Kəmaləddin Heydərov da barışıq prosesinə dəstək verib: "Azərbaycanın Fövqəladə hallar naziri K.Heydərov var, mənim dostumdur. Mənim də tanıdığım bəzi rusiyalı dostlarımızla bizi görüşdürdü, hansı addımlar atıla biləcəyinə dair qeyri-rəsmi fikir mübadiləsi apardıq".

Çavuşoğlu iş adamı F.Əhmədovun rolu haqda da danışıb, onun Prezident Ərdoğanla görüşərək Rusiya Prezidentinə məktub yazmaq haqda təklif verdiyini deyib: "Keçmiş rusiyalı senator, mənim AŞPA-dan dostum, Azərbaycan əsilli F.Əhmədov var. Fərhad Rusiyada böyüyüb, iqtisadi baxımdan güclənib, senatorluq edib. Sonra bir ara Azərbaycana döndü. Azərbaycanı da, Türkiyəni də, Rusiyanı da çox sevir. Putinlə də yaxın çalışma içərisində olub, onu yaxından tanıyır. Məsələn, məktub məsələsində gəlib Prezidentimizə təklif etdi. Dedi ki, Putinə məktub yazsa, bu məktub başqa insanların gəlib-getməsindən daha təsirli ola bilər. Prezidentimizə məktub vasitəsilə nəticə əldə ediləbiləcəyini anlatmışdı. Həmin görüş də bu məktubun getməsindən təxminən bir ay əvvəl olmuşdu. Məktubun çərçivəsinə baxdıqda F.Əhmədovun da dedikləri orada yer alır. Putini dost kimi yaxından tanıyan biri kimi Əhmədovun təklifləri doğrudan da təsirli oldu. Ona çox təşəkkür edirik. Çünki F.Əhmədov həm Azərbaycanı, həm Türkiyəni, həm Rusiyanı çox sevir. Beləcə, üç ölkəni də sevən və səmimi səylər göstərən başqa dostlarımız da oldu".

Əvvəla Çavuşoğlunun məhz bu məqamda F.Əhmədovun personasına belə yüksək qiymət verməsi çox maraqlıdır. Adları çəkilən digər dövlət adamlarının prosesə təsir göstərə bilməsi mümkündür. Hətta bu barədə çox danışılıb, ancaq F.Əhmədovun belə bir missiyanı uğurla həyata keçirməsi ilə bağlı xəbər isə indiyə qədər müzakirə olunmayıb. F.Əhmədovun dövlətlərarası müstəvidə bu qədər nüfuzu ola bilərmi?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, M.Çavuşoğlunun dediklərində həqiqət payı az deyil: "Bunu deyən rəsmi adamdır. Türkiyə Prezidenti ilə bağlı yaşanan hadisələri danışır. Təbii ki, burada yalan olmaz. Bu məsələdə Çavuşoğlu olmayanları söyləsə, Rusiyanın da sərt etirazı olar. Çavuşoğlunun mövqeyi həm də rəsmi sayılır. F.Əhmədovun Putinlə münasibətləri çox yaxşı olub. Məhz buna görə o, yeganə azərbaycanlıdır ki, Rusiya parlamentinin yuxarı palatasında senator kimi təmsil olunub. Bunu ona göstərilən böyük etimadın göstəricisi kimi qəbul edə bilərik.

Ancaq sonradan onun adı bir sıra xoş olmayan qalmaqallarda hallanmağa başladı. Xüsusilə də həyat yoldaşı ilə bağlı yaşananlar ona olan münasibəti dəyişib. Yəni hiss olunur ki, onun Rusiya hakimiyyətinin yanında əvvəlki nüfuzu qalmayıb. Burada maraqlı olan detal Çavuşoğlunun niyə məhz indiki məqamda F.Əhmədovdan danışmasıdır? Görünən budur ki, bunu F.Əhmədovun özü Türkiyədən xahiş edib. Görüb ki, yazdığı yazı Azərbaycanda birmənalı qarşılanmayıb, buna görə də qorxub Türkiyəyə müraciət edib. Sanki imdad diləyib. Bəlkə də bu reaksiyanı gözləmirmiş. Görünən budur ki, yazdığının arxasında sona qədər durmağı bacarmayacaq. Hətta fikirlərindən imtina da edə bilər. O vaxt Rusiya ilə Türkiyənin arasını düzəltməyə bir çox adam çalışırdı. Görünür, bir kanal da bu olub. Amma hazırda F.Əhmədov həmin nüfuzda deyil".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, oktyabrın 29-da hüquq müdafiəçisi Oqtay Gülalıyev avtomobil yolunu keçərkən taksi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən vurulub. Oktyabrın 30-da O.Gülalıyevin üzərində cərrahiyyə əməliyyatı keçirilib. Onun müalicəsi Respublika Neyrocərrahiyyə Xəstəxanasında davam etdirilib.**

# Oqtay Gülalıyevin durumunda irəliləyişlər bəzi radikalları siyasi ittiham kartı ələ keçirməkdən məhrum etdi...



Daha sonra O.Gülalıyev müalicə olunmaq üçün Türkiyəyə aparılıb. Hazırda Türkiyənin İstanbul şəhərindəki "Amerikan" xəstəxanasında müalicə alır. O.Gülalıyevin müalicəsi Heydər Əliyev Fondunun dəstəyilə həyata keçirilir.

O da məlumdur ki, O.Gülalıyevin başına gələn məlum hadisədən sonra radikal müxalifət bundan müxtəlif siyasi məqsədlər üçün istifadə etməyə çalışdı. Olmazın siyasi uydurmalarla çıxış etməyə başladılar. Məsələ ondadır ki, əvvəl Gülalıyevin avtoqəza nəticəsində xəsarət almasını "hakimiyyətin sifarişi" kimi təqdim etməyə cəhd etdilər. Hər vasitə ilə bundan siyasi şou yaratmağa çalışdılar. Sonra hadisənin təfərrüatları, videogörüntülər ortaya çıxanda bu əsassız iddiaları başqa "iddialar" əvəz etdi. Belə görüntü yaratmaq istədilər ki, guya hakimiyyət hüquq müdafiəçisinin müalicəsində maraqlı deyil. Beləcə, insan faciəsi üzərində öz xəbis niyyətlərini reallaşdırmaq istədilər.

Heydər Əliyev Fondunun O.Gülalıyevin müalicəsini öz üzərinə götürməsi onların bu planını da alt-üst etdi. Məlum qəzada O.Gülalıyevin ağır xəsarət alması təbii ki, müalicənin çətin və uzun bir prosesi əhatə edəcəyi anlamına gəlir. Ancaq radikallar bunu da başqa cür yozmağa cəhd etdilər. Belə ki, Heydər Əliyev Fondunun guya O.Gülalıyevin müalicəsi prosesindən çəkilməsi haqda iddia ortaya atdılar. Ancaq bu yalanın da ömrü uzun çəkmədi. Prezidentin köməkçisi Anar Ələkbərovun məsələyə anında müdaxiləsi və açıqlama verməsi Fondun adına söylənən yalanları bir anda puç etdi. Məlum oldu ki, hüquq müdafiəçisi xəsarət aldığı ilk günlərdən məsələ Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişi əsasında Heydər Əliyev Fondu tərəfindən nəzarətə götürülüb. İndiyə qədər bütün lazımi prosedurlar Fondun nəzarəti və dəstəyilə həyata keçirilir.

Ən nəhayət, bu günlərdə O.Gülalıyevin oğlu Təbriz Gülalıyev sosial şəbəkə hesabında bəyan etdi ki, atasının durumunda irəliləyiş müşahidə olunur. Qeyd etdi ki, artıq O.Gülalıyevin qızdırması olmur, nəfəs alması da yaxşılaşıb. Həmçinin, böyrəklərində olan keratinin səviyyəsi azalmağa doğru gedir.

Maraqlıdır ki, bütün bunlardan sonra radikal müxalifət O.Gülalıyev məsələsində susqunluğa qapılıb. Bütün bunlar onu göstərir ki, radikal müxalifətin O.Gülalıyev üstündə hakimiyyətə yönəlik siyasi ittiham şousu qurmaq istəməsi iflasa uğrayıb. Çünki bir sıra məsələlərin aydınlaşması, O.Gülalıyevin durumunun yaxşılaşması bu yöndə görülən işlərin müsbət nəticə verməsini göstərir. Bütün bunlar da radikal müxalifətin işinə yaramadığı üçün susurlar. Çünki Gülalıyev ətrafında yaratmaq istədikləri süni siyasi ajiotaj tamamilə iflasa uğrayıb. Bu səbəbdən radikallar növbəti bir biabırçı uğursuzluğun girdabına düşüblər.

***Vidadi ORDAHALLI***

# Mühacir biznesini araşdıran Almaniya müstəntiqləri Müsavat Partiyasının qərargahında...(?)...

**Məlum olduğu kimi, Müsavat Partiyası üzvlərindən ibarət böyük bir cinayətkar şəbəkə Almaniyada ifşa edildi. Saxta mühacir biznesilə məşğul olanların arasında partiyanın Avropa qanadı sayılan Avropa Koordinasiya Mərkəzinin (AKM) üzvləri çoxluq təşkil edir.**




Xatırladaq ki, ötən ay Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Cinayətkar dəstənin saxlanan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda, o cümlədən, 3-10 min avroarası ödəmə qarşılığında insanları qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinirlər.

Xaricdə yaşayan jurnalist Yafəz Əkrəmoğlu Müsavatın etdiyi əməllər barədə ictimaiyyətə tez-tez məlumatlar verir. O, sosial şəbəkədə yazdığı statusda AKM üzvlərinin kütləvi şəkildə müstəntiqlər tərəfindən dindirildiyini bildirib: "Müsavat AKM-nin bütün üzvlərinin Almaniyada istintaqa çağırılmasına başlanıb. Bu, gözlənilən idi. Miqrasiya idarələri və məhkəmədə olan Müsavat və Müsavat AKM üzvlərinin işlərinə baxış da sürətləndirilib. Hamısına ucdantutma dərhal neqativ cavab vermək, ardınca deport etmək üçün. Bəzən olub ki, məhkəmədə işinə baxılan şəxsi arayışları kimdən, neçəyə almasını boynuna alması üçün təhdid edirlər (təhdid yolverilməzdir). Proses Avropanın bütün ölkələrinə yayılacaq".

Onun sözlərinə görə, Müsavat AKM təhlükəli cinayətlərin və cinayətkarların yuvası hesab olunur, buna görə də bütün üzvləri bu işlərdə şübhəli sayılır: "Müsavat v? AKM üzvlərinin "qara siyahı"sı t?rtib olunur, aidiyyəti olan bütün idarələrə göndərilir. Üzlərinə deyilməsə də, bütün idarələrdə onlarla buna görə davranacaqlar".

Bu işdə Müsavatın Bakıda oturan rəhbərliyinin əli olduğu da bildirilir. Müsavatın öz üzvləri indiyə qədər bu mövzuda kifayət qədər təkzibedilməz fakt ortaya qoyublar. Məntiqlə Almaniya müstənqilərinin apardığı tədqiqatın bir ucu da gəlib Müsavatın Bakıdakı qərargahına kimi çata bilər.

Müsavatın parlament seçkilərində iştirakla bağlı verdiyi qərarı da məhz bu proseslə əlaqələndirirlər. Bildirilir ki, seçkidə qalib gəlmək üçün heç bir şansı olmayan Müsavat Partiyası seçkidə iştirakla bağlı verdiyi qərarda Almaniya polisinin təqiblərindən yaxa qurtarmaq üçün hakimiyyətə sığınır.

Maraqlıdır, Almaniya polisinin gəlib Bakıda Müsavatın rəhbərliyini dindirməsi mümkündürmü? Beynəlxalq praktika bununla bağlı nə deyir?

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, Müsavat rəhbərliyi hər vəchlə bu mövzudan yayınmağa çalışır: "Deməyə sözləri yoxdur ki, yayınırlar. Nə deyəcəklər? Arif Hacılı deyə bilməz ki, Mehdi Xəlilbəylini tanımır. Bundan əlavə, M.Xəlilbəyli və digərlərinin əməllərinə haqq qazandıra bilməz. Onlar barədə partiyadan çıxarılma qərarı çıxarsalar da, vəziyyət yaxşı olmaz. İstintaqda Müsavat rəhbərliyi barədə "yağlı" ifadələr verə bilərlər. Bütün bunlar Müsavat rəhbərliyini çıxılmaz vəziyyətə salıb. Məhz bu səbəbdəndir ki, Arif Hacılının ilk açıqlaması bir qədər təsirli notlar üzərində quruldu və tamamilə başqa mövzunu əhatə etdi. Ancaq biz sıravi, lakin tanınmış müsavatçıların dünyanın müxtəlif ölkələrindən bu məsələyə kəskin reaksiya verdiklərini görürük. Hətta həmin mövqelərin əksəriyyətində Arif Hacılı istefaya çağırılır. Müsavat rəhbərliyinin başqa bir narahatlığı istintaqın bir qolunun da onlara qədər uzana biləcəyi ilə bağlıdır. Artıq ölkəyə qaytarılan vətəndaşlar var. Onların izahatlarından sonra bir çox mətləbə aydınlıq gələcək. İstənilən halda, bu hadisə həm hüquqi, həm siyasi, həm də mənəvi baxımdan Müsavatın imicinə böyük zərbə vurdu. Azərbaycan hüquq-mühafizə orqanları bu transmilli cinayətkar şəbəkəni kökündən araşdırmalıdır. Belə saxta sənədləri bir çox QHT də verib. Xüsusilə də fəaliyyəti dayandırılan QHT-lər şəxslərə sənədlər verirlər ki, guya onlar ölkədə təqib edilirlər. Yadınızdadırsa, biz iki dəfə sizin qəzetdə bu məsələyə toxunmuşuq. Hələ xeyli müddət əvvəl hüquq-mühafizə orqanlarının belə bir araşdırma aparmalı olduğunun zəruriliyini qeyd etmişdik. Burada dərc edilən məlumatlarda konkret faktlar ortaya qoyulurdu, ictimailəşdirilirdi. Həmin vaxt ölkənin daxilində sözügedən qurumlara qarşı cinayət işi başlanmalı idi. Sənəd saxtakarlığı korrupsiya cinayətinə aiddir.

Yəni ilkin cinayət işinin başlanması üçün kifayət qədər əsas olub.

Almaniya polisinin hərəkətlərindən sonra isə bunu etmək zərurəti bir daha ortaya çıxıb. Hesab edirəm ki, hazırda Azərbaycan hüquq-mühafizə orqanlarının əlində daha ciddi əsaslar var. Əvvəl bunu hətta qanuni əsaslarla etsəydilər belə, daxildəki qüvvələr bunu tam siyasiləşdirməyə çalışacaqdılar.

**Çünki mövzu siyasi qurumları əhatə edəcəkdi. Almaniya ilə bizim aramızda hüquqi yardımla bağlı müqavilə yoxdur. Buna baxmayaraq, kommunikasiyaya keçib, bəzi məlumatları onlardan əldə etmək olar. Güman edirəm ki, bu müraciəti etmək zərurəti Almaniyada yaranacaq. Çünki onların apardıqları cinayət işinin bir qolu konkret olaraq bura gəlib çıxır. Bu xüsusda Almaniya polisinin gəlib burada müəyyən istintaq hərəkətləri aparması da mümkündür".**

*Məhəmmədəli QƏRİBLİ*

**Ölkəmizin əsas strateji tərəfdaşı olan Türkiyə ilə ABŞ arasında münasibətlər getdikcə daha kəskin xarakter almağa başlayır. Ekspertlər bildirir ki, baş verənlərin geosiyasi və geoiqtisadi təsirləri mütləq şəkildə özünü göstərəcək.**

# Avrasiyanın geosiyasi mənzərəsini formalaşdıran Türkiyə-Rusiya tandemində Azərbaycan həlledici tərəfə çevrilmək üzrə...

Bu barədə danışmazdan öncə qeyd edək ki, ABŞ-ın addımları faktiki olaraq Ankara-Vaşinqton münasibətlərini böhran həddinə sürükləyir. Amma bu dəfə Ankara ona qarşı kəskinləşən ABŞ siyasətinə adekvat cavab verməyi düşünür. Artıq bunun anonsları da Türkiyə rəhbərliyi tərəfindən verilir. Məsələn, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirir ki, silah məsəəlsində yaranan qalmaqal davam edərsə, ölkəsi "İncirlik" hərbi bazasını ABŞ-ın üzünə bağlaya bilər: "İncirlik" bazasının bağlanması haqqında qərar bizə aiddir. Bunu etmək lazım olsa, biz "İncirliyi" və "Kurəciyi" bağlayacağıq. Hər iki tərəf üçün çox əhəmiyyətlidir ki, ABŞ bizim münasibətlərimizin düzəlməsi mümkün olmayacağı təşəbbüslər etməsin. Əlbəttə, Türkiyə ABŞ-ın istənilən sanksiyalarına cavab verəcək. Biz qərar verəcəyik. Lazım olsa, "İncirliyi" və "Küreciyi" bağlayacağıq".

Qeyd edək ki, "Kürəcik" bazasında Avropanın raket əleyhinə müdafiə sisteminin elementləri yerləşdirilib. Daha əvvəl Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da bildirib ki, ABŞ Türkiyəyə ehtimal olunan sanksiyaları tətbiq edərsə, "İncirlik"dəki, "Kürəcik"dəki hərbi bazalar bağlana bilər: "ABŞ Türkiyəyə ehtimal olunan sanksiyaları tətbiq etsə, o zaman "İncirlik" də, "Kürəcik" də bağlanar. Hər şey ola bilər. Bizim üçün bu məsələdə Konqresin qəbul edəcəyi qərar deyil, hakimiyyətin addımı əhəmiyyətlidir. Ən pis ssenariləri dəyərləndirib qərar verəcəyik. F-35 və S-400 arasında hüquqi və siyasi bir bağlılıq yoxdur. ABŞ təkliflərimizə "yox" deyir. ABŞ məsələyə müsbət yanaşarsa, biz də eyni qarşılığı verərik. S-400 hücum deyil, müdafiə sistemidir. F-35 almasaq, aletnativlərə baxacağıq. Bu, Rusiya bazarı da, başqa bazarlar da ola bilər".




Xatırladaq ki, ABŞ Senatının Beynəlxalq Əlaqələr Komitəsi Türkiyəyə qarşı sanksiya tətbiqini özündə əks etdirən qanun layihəsini qəbul edib. Sanksiyaların qoyulmasına səbəb Türkiyənin Suriyanın şimalına müdaxilə etməsi və Rusiyadan S-400 raketdən müdafiə sistemlərini almasıdır. Komitənin demokrat üzvü Bob Menendez deyib:"Türkiyənin ötən bir il ərzindəki hərəkətləri heç bir çərçivəyə sığmır. Bu qanun layihəsi nümayiş etdirir ki, Türkiyənin Suriyaya münasibətdə siyasəti qeyri-məqbul, onun Rusiyadan S-400 raketlərini alması isə yolverilməzdir". Bu qanun layihəsi Türkiyənin, müdafiə və maliyyə nazirləri də daxil, vəzifəli şəxsləri üzərinə sanksiyalar qoyulmasını nəzərdə turur. Ankara artıq sankisiyalar tətbiq edildiyi halda məsələyə müvafiq reaksiya verəcəyini bildirir.

Bundan başqa, qondarma "erməni soyqırımı" məsələsi də ABŞ-Türkiyə münasibətlərində gərginliyi yüksəldir. Qeyd edək ki, ABŞ Senatı artıq qondarma "erməni soyqırımı"nın tanınması zərurəti haqqında qətnaməni qəbul edib. Bu xüsusda Rəcəb Tayyib Ərdoğan bildirib ki, ABŞ Senatının qondarma "erməni soyqırımı"nı tanınmasına cavab olaraq Türkiyə Böyük Millət Məclisi ABŞ-ın müstəmləkə siyasəti vaxtı hinduların soyqırımı haqqında qətnaməni qəbul edə bilər: "Biz 1915-ci ilin hadisələri haqqında milyondan çox sənədi açdıq. Gəlin, araşdırın. Əlimizdəki sənədlərlə danışırıq. Biz həmçinin sizə qarşı parlamentimizin eyni qərarları ilə çıxmalıyıq. Və biz bunu edəcəyik. Bəs Amerika haqqında danışanda hindular barəsində susmaq olar? Bu, ABŞ tarixində biabırçı səhifədir". Xatırladaq ki, ABŞ müstəmləkəçilik siyasəti zamanı Şimali Amerikanın minlərlə yerli sakinini qətlə yetirib, bəzilərini isə qul kimi satıb. Aborigenlər rezervasiyalara, yəni yaşamaq üçün məhdudlaşdırılmış zonalara sıxışdırılıblar. İndi bu məsələ Türkiyə tərəfindən qaldırılır və beynəlxalq dəstək alsa, ABŞ ciddi problemlərlə üzləşməli olacaq. İstisna olunmur ki, bu məsələdə ABŞ-a qarşı olan ölkələrin çoxu Türkiyənin yanında yer alacaq. İran, Çin, Venesuela, bir sıra ərəb ölkələri, Rusiya və digərlərinin Türkiyəyə dəstəyi gözləniləndir.

Artıq onların bir çoxu dəfələrlə bəyan edib ki, ABŞ-Türkiyə məsələsində Ankaraya dəstək verirlər. Rusiya tərəfi isə daha çox canfəşanlıq göstərir, çünki Türkiyə ilə geniş əməkdaşlıq edir. Bunu Rusiya prezidenti Vladimir Putinin daha geniş əməkdaşlığın qurulması barədə Ərdoğana göndərdiyi son məktub da təsdiq edir. Kreml sözçüsü Dmitri Peskov bildirir ki, Vladimir Putinin Rəcəb Tayyib Ərdoğana yolladığı mesaj Ağ Ev rəhbərinin türk liderə ünvanladığı məktubdan daha konstruktivdir: "Anladığım qədərilə Türkiyə və ABŞ arasında bir qisim ziddiyyətlər var və bunları müzakirə etmək bizə düşməz. Lakin durumu analiz etsək görərik ki, Putinin Ərdoğana mesajı Trampın Ərdoğana yolladığı və türk liderin yenidən özünə təhvil verdiyi o məşhur məktubdan daha konstruktivdir. Putin olduqca kontruktiv tərzdə Ərdoğana fərqli mesajlar göndərdi".

Ekspertlər hesab edir ki, Rusiya yaranmış vəziyyətdə istər Yaxın Şərqdə, istər Mərkəzi Asiyada, istər Cənubi Qafqazda, istərsə də maraq doğuran digər müstəvilərdə Türkiyə ilə daha sıx işbirliyi qurmağa çalışacaq.

**Belə vəziyyət həmin istiqamətlərdə Türkiyənin mövqeyinin daha güclü hala gəlməsini şərtləndirir. Artıq dəfələrlə deyildiyi kimi, bu hal Qafqazda Azərbaycanın maraqlarına tam uyğundur. Eləcə də nəzərə alaq ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ildə sıx əməkdaşlıq qurub və burada da Ankaranın mövqeyinin güclənməsinə öz töhfəsini vermək iqtidarındadır. Təbii ki, bütün bunlar artıq Avrasiya məkanında yeni geosiyasi, geoiqtisadi durum yaradır. Bu isə həmin coğrafiyada yerləşən ölkələrə, o cümlədən Azərbaycana da öz təsirini göstərəcək. Türkiyə, Rusiya ilə işbirliyi sayəsində Azərbaycan burada prosesləri yönəldən tərəf qismində yer ala biləcək.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistan siyasi qüvvələri Paşinyanın Qarabağ siyasətinə təzyiqi artırır

**Dağlıq Qarabağ münaqişəsi ətrafında kifayət qədər maraqlı proseslər cərəyan etməkdədir. Xarici İşlər nazirlikləri səviyyəsində verilən açıqlamalar da bunu təsdiq edərək ortaya maraqlı bir mənzərə çıxarır. Xüsusən də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun CBC kanalına müsahibəsində danışıqlarda müvafiq müzakirələr aparıldığını bildirməsindən sonra buna Ermənistanın reaksiyası pərdə arxasında maraqlı məqamların olduğunu aydın bürüzə verir.**

Məmmədyarov qeyd edib ki, münaqişənin həlli yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür: "Azərbaycan ərazilərinin hərbi işğalı həll yolu deyil və heç vaxt Ermənistanın istədiyi siyasi nəticəni verməyəcək. Azərbaycan bu məntiqi yanaşmaya əsaslanaraq münaqişənin həlli prosesinə sadiqdir".

Xatırladaq ki, Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Nağdalyan azərbaycanlı nazirin dediklərinə cavab olaraq bildirib ki, Ermənistan və Azərbaycan hazırda heç bir sənəd müzakirə etmir. Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı mövqeyinə gəldikdə, Nağdalyan ölkəsinin işğalçı mövqeyindən geri çəkilməyəcəyini bir daha təkrarlayıb. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəisi Leyla Abdullayeva isə bunlara tutarlı və maraqlı cavab verib. O bildirib ki, Elmar Məmmədyarovun CBC televiziya kanalına verdiyi müsahibəsinə münasibətdə İrəvanın reaksiyası olduqca qəribədir: "Belə çıxır ki, sanki Elmar Məmmədyarovun erməni həmkarı bir il yarımdır ki, Azərbaycan xarici işlər naziri və həmsədrlərlə görüşlərə çay içməyə gəlir. Bu, ən azı, qeyri-ciddidir. Anlamaq olar ki, Ermənistan xarici işlər naziri ölkədaxili neqativ reaksiyadan çox qorxur, çünki ondan nazir Elmar Məmmədyarovun sözügedən müsahibəsində etdiyi kimi, mahiyyət üzrə açıqlama tələb oluna bilər. Əslində, müsahibə elə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin "əhalini sülhə çağırmaq" çağırışı kontekstində nəzərdən keçirilməlidir". Bu açıqlamalar əslində onu göstərir ki, danışıqlar masasında münaqişənin dinc müstəvidə həlli üçün konkret sənəd və təkliflər müzakirə olunur. Amma erməni tərəfi bunu açıqlamağa cəsarət etmir. Məhz belə bir vaxtda əvvəl terrorçu fəaliyyət həyata keçirən, indi isə yarımhərbi siyasi partiya olan "Sasna tsrer" gözlənilmədən Nikol Paşinyanın Dağlıq Qarabağ siyasətinə qarşı bəyanat verib. Bəyanatda Ermənistan hakimiyyətinin Dağlıq Qarabağ siyasətindən narahatlıq dilə gətirilib: "Qüvvədə olan hakimiyyət "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı ilə çıxış edir, lakin buna paralel olaraq, "Madrid prinsipləri"ndən və Respublika Partiyasının (keçmiş iqtidar) buna uyğun təşkil edilmiş konspektlərindən imtina etmir".

"Sasna Tsrer" iddia edir ki, Ermənistan hakimiyyəti Qarabağda geosiyasi oyunların toruna düşüb: "Mövcud hakimiyyət Qarabağ və digər strateji məsələlərlə bağlı kifayət qədər ciddilik göstərmir, bu, xalqımız və dövlət quruluşumuz üçün qəbuledilməz neqativ nəticələrə gətirib çıxara bilər".

Respublika Partiyasının sədr müavini Armen Aşotyan da danışıqlar prosesində artıq şərtlərin Azərbaycan tərəfindən diqtə olunduğunu bildirir: "Mövcud hakimiyyət özünü demokratiyanı xarici siyasi doktrina elan edən Paşinyan açıq şəkildə ağıllı təsir gücünü itirir. Azərbaycan istədiklərini alır". Aşotyan qeyd edib ki, Paşinyan tək bacarmadığını, səhv etdiyini və qabiliyyətsiz olduğunu nə qədər tez başa düşsə, cəsarət edib bunu qəbul etsə, bir o qədər kobudluğunun və cinayətkar özünəgüvəninin Ermənistana dağıdıcı təsirini azaltmağa fürsəti olar: "Bizi öz cahilliyi və qeyri-uzaqgörənliyi ilə çətin vəziyyətə salıb. Deyim, məlumatınız olsun, heç kim sənin vurduğun hesabı, xüsusilə də erməni xalqını bağlamaq niyyətində deyil. Sənin tərəfindən itirilən diplomatiya kassaya vurulmayacaq, o səviyyəyə çatmayacaq. Hətta xarici işlər nazirinin istefası da vəziyyəti xilas edə bilməz. Çünki bütün əlavə çatışmazlıqlarla yanaşı əsl günahkar sən və yalnız sən günahkar olacaqsan. Buna görə də ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi məsələsi Qarabağ danışıqlarının hazırkı mərhələsində sənin siyasi özünümüdafiə məsələndir. Sonra sizə xəbərdarlıq etmədiyimi deməyin. Azərbaycan danışıqlarda indi daha güclü tərəfdir və indiki hakimiyyət qətiyyən bunun qarşısını ala bilmir". O da maraqlıdır ki, Ermənistanın ikinci prezidenti Robert Köçəryanın da Qarabağ məsələsinin danışıqlar prosesi ilə bağlı narahatlıqları var. Köçəryanın ofisinin rəhbəri Viktor Soqomonyanın sözlərinə görə, danışıqlar mərhələsində narahatlıqlar olduqca çoxdur: "Son illərdə vasitəçilərdən hər hansı birinin azərbaycanlı icmanın danışıqlarda iştirak etməli olduğunu bildirməsini xatırlamıram. Amma indi bu məsələ gündəmə gəlir. Biz bu günə qədər hakimiyyətin danışıqlarda rəhbər tutaraq iştirak etdiyi konsepsiyasının nə olduğunu bilmirik. Üstəlik, onlar heç bir danışıqların olmadığını bəyan edirlər. Amma məlumatlar göstərir ki, reallıq fərqlidir və nələrsə müzakirə predmetidir". Soqomonyan əlavə edib ki, nizamlama üzrə Ermənistanın konsepsiyası çox açıq bir izahat tələb edir və bu izahatı hakimiyyət vermədir. Amma o bildirir ki, hakimiyyət bunu etmək iqtidarında deyil.

Bütün bunlar həm də onu deməyə əsas verir ki, həmişə olduğu kimi, yenə də Dağlıq Qarabağ münaqişəsi Ermənistanın daxili siyasətində həlledici faktor rolunu oynamaqdadır. Paşinyan iqtidarı beynəlxalq təzyiq və müharibə təhlükəsi qarşısında danışıqlardan imtina edə bilmir, danışıqların davam etməsi isə real nəticələrin əldə edilməsi zərurətini yaradır. Bu da indiki halda ilk olaraq Qarabağ ətrafındakı rayonların qaytarılması deməkdir. İstisna olunmur ki, hazırda məhz bu xüsusda danışıqlar gedir. Erməni politoloq Aleksandr Kananyan qeyd edir ki, əslində, "Madrid prinsipləri" danışıqlarda fəal müzakirə mövzusudur və bu da ərazilərin tədricən Azərbaycanın nəzarətinə qaytarılması deməkdir. O bildirir ki, danışıqlardan geri alddım atılsa, Azərbaycan nəticəyə mütləq şəkildə hərb yolu ilə nail olmağa çalışacaq. Elə digər erməni politoloq Qrant Məlik-Şahnazaryan da eyni mövqeni bölüşür. Onun sözlərinə görə, Ermənistan müharibə astanasındadır: "Biz düşünürük ki, bu, sırf olaraq Ermənistanın inkişafı kontekstində müzakirə olunur, lakin bunun belə olmadığı məlum olur. Çünki bu vəziyyətə Bakıdakı hakim insanların gözləri ilə baxdıqda məlum olur ki, bizim dövlət aparatımız qarşısına qoyulmuş problemləri həll edə bilmir". Erməni politoloqun sözlərinə görə, Azərbaycan bundan əvvəl də müharibə etməyin legitim yollarını axtarıb: "İndi mən həqiqətən də başa düşmürəm ki, Azərbaycan nə üçün müharibəyə başlamır, Paşinyanın "Ordumuz artıq döyüş qabiliyyətli deyil, ordumuz yoxdur" bəyanatını gözləyir". Politoloq qeyd edib ki, Ermənistan müharibə ilə üz-üzədir, Azərbaycan bütün maneələri aradan qaldırıb və indi Ermənistandan yeni mesajlar alır:

"Bu mesajlar odur ki, danışıqlarda razılıqlar əldə olunmalı, Ermənistan da onlara əməl etməlidir. Əks halda savaş qaçılmazdır". Digər erməni ekspert Anjela Elibekova da məsələyə eyni prizmadan yanaşır: "Azərbaycan danışıqlarda istədiyi nəticəni əldə etmədiyi halda daim müharibə versiyasını nəzərdən keçirir. Elmar Məmmədyarov bir neçə dəfə Azərbaycan tərəfinin hər zaman müharibə şəklində alternativ həll yolu axtardığını və danışıqların kəskinləşmə ilə yanaşı baş verə biləcəyini vurğulayıb. Elmar Məmmədyarov "CBC" kanalına müsahibəsində bir neçə maraqlı açıqlama verib. Bunlardan biri də Dağlıq Qarabağ münaqişəsinin həllinə alternativ olaraq müharibə versiyasına toxunmasıdır". Ekspert qeyd edib ki, Məmmədyarovun belə açıq şəkildə hədələyici çıxışını xatırlamır: "Bu cür açıqlamalar adətən İlham Əliyev və ya müdafiə naziri tərəfindən edilirdi, lakin bu dəfə xarici işlər naziri olduqca əsəbi şəkildə və hərbi həll yolunun istisna edilmədiyini bildirib. O açıq şəkildə bildirib ki, danışıqlar davam etsə də, bu, problemin hərbi yolla həllinin istisna edilməsi demək deyil. Nazir bir neçə dəfə aprel döyüşləri zamanı eyni vaxtda danışıqların və döyüşlərin getdiyini işarə edib. Azərbaycan xarici işlər nazirinin növbəti açıqlamasında hər iki icmanın təmaslarından bəhs edilirdi. Bu, Qarabağdakı Azərbaycan icmasının faktiki subyektivliyini artırır. Son 1,5 ildir ki, öz icmalarını danışıqlar masasına gətirməyə çalışırlar və icmalar arasındakı təmasların qurulması bu cəhətdən onlar üçün vacibdir".

**O qeyd edib ki, Azərbaycan tərəfi təhlükəsizliyi sülhməramlıların və öz qaçqınlarının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqələndirir, Ermənistan tərəfi isə "Qarabağın təhlükəsizliyi" dedikdə nə demək istədiyini aydınlaşdırmır: "Mən rəsmi şəkildə bu məsələyə aydınlıq gətirilməsinin və olduqca dəqiq danışmağın tərəfdarıyam. Çünki təəssüf ki, Zöhrab Mnatsakanyanın Bratislava çıxışında Ermənistanın Qarabağın "təhlükəsizliyi"nin qarantı olması və oradakı sakinlərin öz qüvvələri tərəfindən özünü müdafiə edə biləcəyi tezisini açıqlayan ifadələri yer almayıb. Azərbaycanın mövqeyi daha qəti və aydındır". Bütün bunlar Qarabağ məsələsində istər diplomatik, istərsə də hərbi müstəvidə Azərbaycanın kifayət qədər üstün mövqedə olduğunu bir daha nümayiş etdirir.**

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Senatın saxta "erməni genosidi"ni tanımasına əks silah tapıldı - ABŞ-da hindular necə soyqırım edilib...

***Qasım Hacıyev:** ”Dünyada baş verən ən dəhşətli soyqırım aktlarından biri Amerikaya köçən ingilislərin hindulara qarşı həyata keçirdiyi genosiddir”*



*”Türkiyə beynəlxalq qurumlar qarşısında hinduların ingilislər tərəfindən genosidə məruz qalması məsələsini qaldıra və beynəlxalq aləmdən bu soyqırıma hüquqi, siyasi qiymət verilməsini tələb edə bilər”*

**ABŞ Senatının qondarma "erməni soyqırımı"nı rəsmən tanıması əsrlər əvvəl Amerikada hindulara qarşı törədilən soyqırım aktının yenidən gündəmə gəlməsinə səbəb olub. Belə ki, Türkiyənin ATV və "A Haber" telekanallarının ortaq canlı yayımına qatılan Prezident Rəcəb Tayyib Ərdoğan gündəmlə bağlı açıqlama verərək, ABŞ Konqresinin "erməni soyqırımı" qərarına reaksiya verib.**

Ərdoğan ABŞ-la bağlı bəzi qərarlar verə biləcəyini açıqlayıb: "Çox açıq deyəcəyəm, Amerikada hindularla bağlı olanları söyləməmək, danışmamaq mümkündür? Hindulara qarşı edilənlər ABŞ-ın üz qarasıdır. Ruandada fransızların törətdiyi qətliamları, Əlcəzairdə etdikləri soyqırımları bir kənara qoymaq mümkündür? Bunlar Senaqalda qul ticarəti ediblər.

Biz də bütün bunları dünya ictimaiyyətinə açıqlayacağıq. Bunlarla bağlı əlimizdə, arxivlərdə sənədlər var. Bunlarla bərabət müdafiədə deyil, hücumda olacağıq. Qərbin irqçilik və müstəmləkəçilik tarixi olduğunu üzə çıxaracağıq" - deyə Ərdoğan vurğulayıb.

Tarixçilər bildirirlər ki, Amerikada hindulara qarşı ingilislərin törətdiyi soyqırım aktı öz dəhşətləri ilə tarixdə iz qoyub.

XV əsrin sonlarında Xristofor Kolumb ilk olaraq kəşf etdiyi Amerikanı Hindistan zənn etdiyindən, yerli əhalini də hindli hesab etmişdi. Astek, mayya, ink kimi sivilizasiyaların varisləri olan bu toplum Qərbin mənəvi və fiziki soyqırımına məruz qalıb və işğalçılar ilk gündən onlarla müharibələrə başlamışdılar. Ox və nizəylə silahlanmış hindular işğalçılara layiqli müqavimət göstərə bilmirdilər. ABŞ-da hindu soyqırımına dair faktlar məşhur alim M.Stinqlin "Tomoqavksız hindular" əsərində faktlara şərh edilmişdi. Faktlardan aydın olur ki, işğalçılar silah gücünə məhv edə bilmədikləri hindu tayfalarını hiylə yolu ilə qırırdılar. Bu yolda ən geniş yayılmış üsullardan biri çiçək xəstəliyinə yoluxmuş və bundan ölmüş insanların yorğanlarından hindulara qarşı istifadə etmək idi. İngilislər həmin yorğanları hindu məskənlərinin yaxınlığına qoyurdular. Heç nədən şübhələnməyən hindular isə bu yorğanlardan istifadə edərək, kütləvi şəkildə qırılırdılar.

Tarixçilər vurğulayırlar ki, Bartolome Də Las Casas (1474-1566) "Qırmızıdərili qırğını" adlı kitabında şəxsən şahid olduğu hindu qırğınını belə izah edir: "Sırf əyləncə olsun deyə, qadın-kişi demədən qitənin yerli əhalisi olan hinduların əllərini, burunlarını və qulaqlarını kəsib qopardıqlarını və bunun hinduların hər rast gəlindiyi yerdə təkrarlandığını öz gözlərimlə gördüm...".

Tarixçilər yazırlar ki, ABŞ dövləti yarandıqdan sonra da soyqırım davam etdirilir. Bu məqsədlə ABŞ hərbi nazirliyi nəzdində hinduların işləri üzrə idarə yaradılmışdı. 1924-cü ilədək qüvvədə olan qanuna görə, əcnəbi elan edilmiş hindular bu ölkənin vətəndaşları sayılmırdılar və heç bir hüquqa malik deyildilər.

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, X.Kolumbun 1492-ci ildə Amerikanı kəşf etməsindən keçən beş əsr boyunca gəlmə avropalılar və amerikalılar tərəfindən qitənin yerli sakinləri olan hindulara (qırmızıdərililərə) qarşı həyata keçirilən soyqırımın bu gün gündəmə gətirilməsi çox vacib bir məsələdir.

Q.Hacıyevin sözlərinə görə, müasir amerikalıların babalarının hundulara qarşı törətdiyi soyqırım aktı tarixdə öz qiymətini almayan genosidlərdən biridir. Q.Hacıyevin sözlərinə görə, ingilislər və digər gəlmələr hundu torpaqlarında onlara qarşı min cür zülm ediblər. Gəlmələr tərəfindən zorla öz yurdlarından qovulan hinduların rezervasiyalara yerləşdirilməsi, onların immun sistemlərinə yad olan su çiçəyi xəstəlikləri kimi qədim dünya xəstəliklərinin qəsdən yoluxdurulması, axtalama və hindi uşaqlarının xristian missionerlər tərəfindən uzun müddət ailələrindən uzaqda saxlanılaraq ABŞ hindu məktəbləri və Kanada hindu məktəbləri kimi yerlərdə ana dillərində danışmalarının qadağan edilməsi (mədəni soyqırım) kimi müxtəlif soyqırım növləri həyata keçirilib. Q.Hacıyev vurğuladı ki, bundan başqa, iqtisadi resursları nəzarət altına almağı hədəfləyən utilitar soyqırımlar da həyata keçirilib.

O qeyd etdi ki, 8 sentyabr 2000-ci ildə ABŞ-da Hindu İşləri Bürosunun sədri gəlmələrin yerlilərə qarşı həyata keçirdiyi soyqırımlar üçün hindulardan rəsmi şəkildə üzr istəyib.

Tarixi mənbələrdə isə qeyd edilir ki,1520-1527-ci illərdə Meksika, Orta Amerika, Cənubi Amerikada milyonlarla hindu su çiçəyi səbəbindən ölüb. Bundan başqa, su çiçəyi İnk İmperiyasının imperatoru olan Huayna Capacla birlikdə 200000 inkin ölümünə səbəb olmuş və İnk İmperiyası zəifləyib.

1561-1562-ci illərdə Çilidə ölənlərin sayı dəqiq olmasa da, 20-25 % hindunun öldüyü təxmin olunur. Alonso de Qonqora Marmolejoya görə, mədənlərdə işlədilən çoxlu hindu ölmüş və İspaniya qızıl mədənlərini bağlamağa məcbur olub. 1617-1619-cu illərdə Şimali Amerikanın şimal-şərq sahilləri, Massaçusets körfəzi sahilində yaşayan hinduların 90%-i ölüb. Burada ölənlərin sayı dəqiq bilinmir, 1674-ci ildə sayları təqribən 50000 nəfər olan hindular 1729, 1738 və 1753-cü illərdəki suçiçəyi yoluxmalarından sonra 25000 nəfərə qədər azaldılar. 1770-ci ildə Şimali Amerikanın qərb sahillərində yaşayan hinduların 30%-i ölüb. Texasdakı Hindu Soyqırımı Muzeyində qorunan sənədə görə, suçiçəyi infeksiyasının bulaşdığı yorğanlar Lenape hindularına Texas-Hindu müharibələri ərəfəsində texaslı əsgərlər tərəfindən verilib.

Qasım Hacıyev qeyd edir ki, gəlmələrin Amerikanı işğal etməsi nəticəsində nəinki qırmızıdərililər kütləvi şəkildə qətlə yetirilib, həttə qədim dünya mədəniyyətinin böyük bir sivilizasiyası məhv edilib. "Dünyada baş verən ən dəhşətli soyqırım aktlarından biri Amerikaya köçən ingilislərin hindulara qarşı həyata keçirdiyi genosiddir. Bilirsiniz, müharibə gedən yerlərdə insanların həlak olması müharibə qanunlarına uyğundur, amma ABŞ-da ingilislərin qırmızıdərililərin soyunu kəsmək məqsədilə törətdikləri qətliamlara heç cür bəraət vermək mümkün deyil, buna hər hansı formada haqq qazandırmaq olmaz. Uzaq bir qitədən Amerikaya gəlib burada yerli, aborigen hinduları-qırmızıdərililəri ucdantutma, uşağa-qocaya rəhm etmədən qətlə yetirmək böyük tarixi cinayətdir. Gəlmələr aborigen əhalini məhv edərək onların torpaqlarında yerləşdilər və bundan sonra Amerika ştatlarının yaradılması baş verib. Bütün bunların hamısı haqqında nə danışsaq da, yenə o nəticəyə gəlirik ki, əsl soyqırım qırmızıdərililərə qarşı ingilislərin törətdikləri soyqırımdır".

Q.Hacıyev vurğuladı ki, Türkiyədə nəşr edilən "Tarix" dərgisində qırmızıdərililər, onların tarixi, etnoqrafiyası, mənsub olduqları mədəniyyət, habelə məruz qaldıqları soyqırımlar haqqında geniş məlumat verilib. O qeyd etdi ki, ABŞ-ın yaranması və onun inkişaf tarixini öyrənərkən hindularla bağlı bir sıra faktların aşkara çıxarılmamasının şahidi oluruq. "ABŞ dövlətinin qurulduğu torpaqlar qırmızıdərililərin vətənidir, torpağıdır, gəlmələr yerli xalqı amansızcasına qıraraq o torpaqları ələ keçirdilər, başda ingilislər olmaqla, başqa Avropa xalqlarını da ora köçürməklə dövlət yaratdılar. Bu dövlət də indi bütün dünyaya demokratiya dərsi keçir, halbuki, onların babaları hinduları qətlə yetiriblər, onlara qarşı genosid törədiblər. İngilislər hindulara qarşı soyqırım törətməklə həm onların özlərini qətlə yetirdilər, həm də qədim mayya və digər mədəniyyətləri məhvə doğru apardılar.

Mayya mədəniyyəti dünyanın qədim mədəniyyətlərindən biridir. Müəyyən mənada mayya mədəniyyətinin izləri saxlanılırsa, digər tərəfdən, mayya mədəniyyətini yaradan xalqların tarixi təhrif olunur, yer üzündən silməyə doğru aparılır. Amma bunları gizlətmək mümkün deyil. ABŞ dünyaya "demokratiyanın keşiyində" duran bir dövlət kimi təqdim edilsə də, əslində, belə deyil, müasir amerikalıların babaları hindulara qarşı böyük soyqırım törədib və bunu ABŞ heç zaman unutmamalıdır. Bu gün ABŞ Senatının qondarma "erməni soyqırımı"nı rəsmən tanıması hinduların ingilislər tərəfindən genosidə məruz qoyulmasını yenidən gündəmə gətirib. Türkiyə beynəlxalq qurumlar qarşısında hinduların ingilislər tərəfindən genosidə məruz qalması məsələsini qaldıra və beynəlxalq aləmdən bu soyqırıma hüquqi, siyasi qiymət verilməsini tələb edə bilər" - deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

# Aqrar sahəmizin bir sıra ənənəvi problemləri çözülməyə başlayır

**Qeyri-neft sektorunun mühüm bir qolu kimi aqrar sahənin inkişafı hazırda Azərbaycan üçün əsas prioritetlərdən birini təşkil edir. Bu xüsusda atılan addımlar artıq aqrar sahənin sığorta və kredit dərdinin də çözülmək üzrə olduğunu göstərir.**



Belə ki, gələn ildən aqrar sahədə də sığortanın geniş tətbiqi gözlənilir və bu xüsusda artıq müvafiq qanun da hazırdır. Bundan başqa, kredit məsələsində də mühüm yeniliklərə start verilir.

Araşdırmalar göstərir ki, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) yaradılması, ümumiyyətlə, aqrar sahədə müşüm yeniliklərə yol açacaq. Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev məsələnin bu tərəfinə nəzər salaraq bildirir: "Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin fermerlərə yaratdığı üstünlüklər təkcə aqrar subsidiyaların bu sistem üzərindən verilməsi ilə yekunlaşmır. Subsidiyaların verilməsi bu mexanizmin yalnız bir hissəsidir. Fermerlər EKTİS vasitəsilə gübrə, sertifikatlı toxum sifariş edə, baytarlıq, fitosanitar xidmətlərdən yararlana, aqrar kredit almaq üçün müraciət edə biləcəklər".

Nazir müavini bildirib ki, payızlıq əkinlərin bəyan edilməsi prosesi başa çatdıqdan və 2020-ci ilin büdcəsi açıldıqdan sonra subsidiyalar kənd təsərrüfatı məhsulları istehsalçılarının "Fermer kartı"na köçürüləcək: "Subsidiyaların əvvəlki illərdən fərqli olaraq ilin əvvəlində verilməsi fermerlərə təsərrüfat xərclərini qarşılamaq üçün imkan yaradacaq. Fermer subsidiya vəsaitinin 25 faizini nağdlaşdıra biləcək, 75 faizini isə nağdsız əməliyyatlar vasitəsilə EKTİS üzərindən gübrə, toxum, herbisid, pestisid almaq və sair aqrar xidmətlər üçün istifadə edə biləcək. EKTİS-in əsas hədəflərindən biri aqrar sahəyə ayrılan subsidiyaların məhz kənd təsərrüfatı fəaliyyəti üçün istifadə olunmasıdır. Fermer bu vəsaiti məhz aqrar sahəyə yönəltməlidir, 75 faiz vəsaitin nağdsız əməliyyatlara yönləndirilməsinin məqsədi budur". Amma yuxarıda qeyd olunduğu kimi, subsidiyalardan əlavə, fermerlər artıq kredit də götürmək üçün yeni imkanlar əldə edir. İndiyə qədər banklar aqrar sahəyə heç də həvəslə kredit ayırmırdı. Fermerlərin böyük əksəriyyəti kredit əlçatanlığının olmamasından, faizlərin yüksəkliyindən şikayət edirdi. Amma yeni sistem və atılan addımlar bu məsələni həll edir. Özü də fermerlərə böyük həcmdə kredit götürmək üçün də lazımi şərait yaradılır. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin "Aqrar Kredit və İnkişaf" Agentliyi vasitəsilə fermerlərə kredit ayrılır, özü də güzəştli şərtlərlə.

Müvafiq qaydalara əsasən, fermer güzəştli kredit almaq üçün yaşadığı rayonda banklara müraciət etməlidir. Bank tərəfindən müraciətə baxılır, 15 gündən gec olmayaraq kreditin verilməsi barədə qərar qəbul olunur, yaxud sahibkarlara əsaslandırılmış imtina məktubu verilir. Bank krediti vermək qərarına gəlirsə, kredit vəsaitinin ayrılması barədə Kənd Təsərrüfatı Nazirliyinin "Aqrar Kredit və İnkişaf" Agentliyinə sifariş göndərir. Agentlik 2 iş günü müddətində vəsaitin müvəkkil kredit təşkilatının hesabına köçürülməsini təmin edir. Müvəkkil kredit təşkilatı isə aldığı vəsaiti 1 iş günü müddətində borcalanın hesabına köçürür.

Kreditlərin həddi, müddəti və faizlərinə gəlincə, güzəştli kreditlərin həddi 5 min manatadəkdir. 5-30 min manatadək kiçikhəcmli kreditlər, 30-100 min manatadək ortahəcmli kreditlər, 100-200 min manatadək irihəcmli kreditlər sayılır. 1 milyon manatadək də kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər verilir. Həmçinin mikrokreditlər üçün 2 ilədək, kiçik və ortahəcmli kreditlər üçün 3 ilədək, irihəcmli kreditlər üçün 5 ilədək zaman müəyyən olunur. Bütün bunlar fermerlər tərəfindən də razılıqla qarşılanır və hesab edilir ki, bu hal aqrar sahədə daha böyük həcmdə məhsul istehsalına imkan verəcək.

Digər tərəfdən dövlət artıq bu məhsulun təhlükəsizliyini də təmin edir. Söhbət aqrar sığortanın tətbiqindən gedir. Aqrar Sığorta Fondunun dövriyyəyə daxil olması bu prosesdə mühüm rol oynayacaq. Xatırladaq ki, ötən həftə Nazirlər Kabineti Aqrar Sığorta Fondunun Nizamnaməsini təsdiqləyib. Nizamnamədə Aqrar Sığorta Fondunun fəaliyyətinin məqsədi, vəzifələri və hüquqları, onun idarə edilməsi, nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları, audit, uçot və hesabatların tərtibi və təqdim qaydaları və digər məsələlər öz əksini tapıb. Nizamnaməyə əsasən, Aqrar Sığorta Fondu ölkədə aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlığını, idarəedici qurumun formalaşdırılmasını təmin etmək və onun fəaliyyətinə nəzarət etmək məqsədilə yaradılmış qeyri-kommersiya hüquqi şəxsidir.

Fond qəbul etdiyi sığorta öhdəliklərinin idarəedilməsini təmin etmək məqsədilə sığorta və təkrarsığorta siyasətini müəyyən etmək, sığorta vasitəçiliyi fəaliyyəti üçün vasitəçi aqrar sığortaçılarla müqavilə bağlamaq, aqrar sığorta sisteminin dayanıqlı olması istiqamətində siyasət və qaydaların qəbul edilməsi kimi səlahiyyətlərə malikdir.

**Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşması üçün 2019-cu ilin dövlət büdcəsindən 1 milyon manat, 2020-ci ilin dövlət büdcəsindən 5 milyon manat ayrılacaq. "Aqrar Sığorta haqqında" qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir. Bununla aqrar sahənin sığorta problemi də çözümünü tapacaq. Hesab olunur ki, məhz bu vəziyyətdə aqrar sahədə artıq daha böyük həcmdə məhsul istehsalı mümkündür.**

***Ramil QULİYEV***

# Səttar Möhbalıyev Brüsseldə nüfuzlu beynəlxalq təşkilatın vitse-prezidenti seçildi...

**Belçikanın paytaxtı Brüsseldə Pan Avropa Regional Şurasının (PARŞ) 4-cü Baş Assambleyası keçirilib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından "Bakı-Xəbər"ə verilən xəbərə görə, tədbirdə PARŞ-ın 2016-2019-cu illərdəki fəaliyyəti haqqında Hesabat və 2020-2023-cü illər üçün Siyasi sənəd müzakirə edilib.**

Pan Avropa Regional Şurasının prezidenti İ. Petriaşvili, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Ş.Barrou, PARŞ-ın Baş katibi L.Visentini forumda giriş nitqi ilə çıxış edib.

Baş Assambleyada çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev qeyd edib ki, 3-cü Baş Assambleyadan ötən müddət ərzində Avropa həmkarlar ittifaqlarının əsas məqsədlərinə nail olunması istiqamətində, yəni, əməkçilərin mənafeyi uğrunda mübarizənin zəngin ənənələrindən daha geniş istifadə olunması, həmkarlar ittifaqlarının həmrəyliyinin daha yüksək səviyyəyə çatdırılması yolunda əhəmiyyətli addımlar atılıb. Bu mənada, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi adından üzv ölkələrin həmkarlar ittifaqlarının maraqlarının təmsilçisi olan PARŞ-ın mühüm rolunu yüksək qiymətləndiririk. Biz Regional Şuranın Nizanmaməsinə daxil edilmək üçün işlənib hazırlanmış əlavə və dəyişikliklərin Baş Assambleyada təsdiq edilməsinə öz razılığımızı veririk. Həmçinin, Baş Assambleyanın müzakirəsinə təqdim edilmiş "PARŞ-in 2020-2023-cü illər üçün fəaliyyətinin siyasi orientasiyası və profili" Konsepsiyası ilə razılaşdığımızı bəyan edirik. Bildiyimiz kimi, bu konsepsiyada əsas prioritetlərdən biri kimi Şuranın fəaliyyətinə üzv təşkilatların daha çox cəlb olunmasının təmin edilməsi, həm də istər qərb, istərsə də şərq regional təşkilatlarının birgə diskussiyalarının keçirilməsi nəzərdə tutulur.

AHİK sədri bildirib ki, Azərbaycandan da keçən "İpək yolu"nun bizim region ölkələrinin inkişafına böyük təsiri olacaqdır. Siyasi sənəddə deyildiyi kimi, PARŞ-ın bir çox ölkələri ilə əlaqələr və dəhlizlər yaratmağa imkan verəcəkdir. Biz həmçinin həmkarlar ittifaqlarının daha təsirli kommunikasiyalara keçidində BHİK-in bütün strukturları ilə birgə işləmək, iqtisadi inkişafın, əməyin, sosial siyasətin strateji problemləri üzrə geniş ictimaiyyətlə qarşılıqlı fəaliyyət göstərmək istəyirik.

Biz Pan Avropa Regional Şurasının BHİK-lə birgə gənc işçilərlə işə, onların həmkarlar ittifaqı üzvlüyünə cəlb edilməsinə, həmkarlar ittifaqı işinin bütün səviyyələrində fəal iştirak etməsinə diqqət yetirməsini xüsusi olaraq qeyd edirik. Şura bizi motivasiya, gender işinin inkişafına yönəldir. Hesabat dövründə orqanayzinq üzrə keçirilmiş seminarlar, konfranslar praktikasını PARŞ-ın mütəxəssislərinin təcrübəsindən istifadə etməklə bundan sonra da davam etdtmək lazımdır. Ötən hesabat dövründə AHİK-in nümayəndələri PARŞ-ın 33 tədbirində iştirak ediblər. Hesab edirəm ki, BHİK-in və PARŞ-ın həmkarlar ittifaqı təhsilinin təşkilində rolu daha da yüksəldilməlidir.Biz bu müddəanın 4-cü Baş Assambleyanın Proqram sənədində qeyd olunmasını xahiş edirik.



S.Möhbalıyev iştirakçıların diqqətinə çatdırıb ki, Azərbaycanda "2016-2020-ci illər üçün layiqli əməyə görə Ölkə proqramı"nın uğurla həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında müsbət dəyişikliklərə gətirib çıxarır. Həyata keçirilən genişmiqyaslı islahatlar, layiqli əməyin strategiyasının realizə edilməsinə yönəlmiş tədbirlərzəhmətkeşlərinrifah halının yüksəldilməsinin şərtlərindən biridir. AHİK dövlət proqramlarının realizə edilməsində özünün Konsepsiyasına malikdir. Bu Konsepsiyanın yerinə yetirilməsi çərçivəsində Beynəlxalq Əmək Təşkilatının fəal köməkliyi ilə sosial və iqtisadi məsələlər üzrə Respublika Üçtərəfli Komissiyası yaradılıb.

S. Möhbalıyev çıxışının sonunda deyib: "Yaşadığımız dünyada çoxmillətli kapital qüdrətli işəgötürənə çevrilir. Bununla belə, kapitalın əmək bazarı ilə spesifik münasibətləri yaranıb. Burada sosial ədalətlə bağlı problemlər mövcuddur. Biz bilirik ki, dünyanın həmkarlar ittifaqları transmilli şirkətlərlə qlobal səviyyədə sosial dialoq qurmağa çalışır. Hərçənd ki, bu məsələdə problemlərimiz çoxdur və bizim beynəlxalq təşkilatların köməyinə ehtiyacımız vardır. Pan Avropa Regional Şurasının çoxcəhətli işi bu gün böyük əhəmiyyət daşıyır. Həmkarlar ittifaqı təşkilatı olaraq bu qurum gündəlik fəaliyyətimizdə bizə yaxından köməklik göstərir. Bu gün Şuranın yeni seçiləcək heyətinə bu ənənəni davam etdirməyi arzu edirik".

Baş Assambleyada Pan Avropa Regional Şurasının yeni rəhbərliyi və tərkibi seçilib. İ. Petriaşvili yenidən Pan Avropa Regional Şurasının prezidenti seçilib. Baş Assambleyada AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev yeni müddətə qurumun vitse-prezidenti seçilib. Bu münasibətlə PARŞ-ın rəhbərliyinə və üzvlərinə munnətdarlığını bildirən AHİK sədri özünün yenidən bu quruma vitse-prezident seçilməsini bütövlükdə Azərbaycan həmkarlar ittifaqlarının əməyinə verilən yüksək qiymət və etimad kimi dəyərləndirib və əmin edib ki, göstərilən yüksək etimadı doğrultmaq üçün bütün imkanlarından istifadə edəcək.

# Aprel qəhrəmanı olmaq insanlara qarşı cinayət və özbaşınalıqlara əsas verirmi...

**Məlum olduğu kimi, Beyləqan Rayon Polis Şöbəsi Azərbaycan Ordusunun hərbi qulluqçusu, polkovnik Qadir Vəlişovu xuliqanlıq ittihamı ilə həbs edib. Yayılan məlumata görə, yaşadığı Beyləqana qayıdan Q.Vəlişov rayonda 13 hektar torpaq sahəsi və ferma üstündə yaranmış mübahisəyə görə CM-nin 221.3 (xuliqanlıq) maddəsi ilə həbs edilib.**



## *Şakir Ağayev: "Qəhrəmanın cinayətə əl atması, başqa bir vətəndaşın hüquqlarını pozması, artıq hərəkətlərə yol verməsi yolverilməzdir"*

Yaxınları bu həbsin sifarişli olduğunu deyərək, ölkənin hüquq-mühafizə orqanlarından ədalət tələb edirlər.

Qeyd edək ki, polkovnik Vəlişov Qadir Saday oğlu Lələtəpənin işğaldan azad olunması əməliyyatına rəhbərlik edib. Azərbaycan bayrağını Lələtəpəyə sancan hərbçi kimi tanınıb.

Məlumat üçün onu da vurğulayaq ki, 1986-cı ildə həbri məktəbi bitirən Q.Vəlişov Əfqanıstan müharibəsində döyüş yolu keçib. Qarabağ müharibəsi başlayan ilk gündən Silahlı Qüvvələrimizdə xidmət keçib, 1994-cü ildə Füzuli istiqamətində ağır yaralanıb, 1 il müalicə alandan sonra yenidən xidmətə qayıdıb.

On beş ilə yaxın hərbi hissə komandiri işləyən polkovnik 2016-cı il aprel döyüşlərində də ağır yaralanıb və 8 aydan sonra yenidən xidmətə qayıdıb. Qadir Vəlişov son vaxtlar Naxçıvanski adına Hərbi liseydə rəis müavini vəzifəsini tutub. Silahlı Qüvvələrdən 6 ay əvvəl tərxis olunub.

Aprel qəhrəmanı olmaq insanlara qarşı cinayət və özbaşınalıqlara əsas verirmi?

"Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, hər kəs qanun qarşısında bərabərdir. "Azərbaycan Konstitusiyasında qeyd edilir ki, bütün vətəndaşlar bərabərhüquqludur və Cinayət Məcəlləsində də yuxarıdan aşağıya heç kəsə güzəşt yoxdur. Qəhrəmanlar da, həmçinin, qanun qarşısında digər vətəndaşlarla eyni qaydada məsuliyyət daşıyırlar. Qəhrəmanı dövlət qiymətləndirir, onu müxtəlif mükafatlarla təltif edir. Ən əsası isə xalq qəhrəmana böyük dəyər verir, onu sevir, ona güvənir, gərək qəhrəmanlar da xalqın bu sevgisini, hörmətini qorusunlar. "Mən qəhrəmanam" deyib cinayətə əl atmaq bütün hallarda qəbuledilməzdir. Qəhrəmanın cinayətə əl atması, başqa bir vətəndaşın hüquqlarını pozması, artıq hərəkətlərə yol verməsi yolverilməzdir, qanunaziddir. Qəhrəmanlıq göstərdiyi üçün dövlət tərəfindən mükafatlandırılan, xalqın sevgisini qazanan insanlara qəhrəmanlığı, fərqləndirilməsi əsas vermir ki, o cinayət etsin. Qəhrəmanlar heç vaxt onlara göstərilən etimaddan, sevgidən sui-sitifadə etməməli, əksinə, öz davranışları ilə nümunə olmalıdırlar. Vaxtilə göstərdiyi qəhrəmanlıqdan sui-istifadə edərək istənilən cinayəti törədən adam bununla da öz qəhrəmanlığını xalq arasında nüfuzdan salır. Bu amil başqa qəhrəmanlarımızın da hörmətdən düşməsinə səbəb ola bilər".

*"...onlara qarşı haqsızlıq varsa, hüquqları pozulubsa, bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər"*

Ş.Ağayev hesab edir ki, qəhrəman olmaq heç kəsə əlavə intiyaz vermir və heç kəsi qanun qarşısında fəqrləndirmir. "İstər qəhrəman, istərsə də digər kateqoriyaya məxsus insanlar olsun, onlara qarşı haqsızlıq varsa, hüquqları pozulubsa, bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər, başqa yola əl atmalı deyillər" - deyə Ş.Ağayev bildirdi.

***İradə SARIYEVA***

**İmtahan prosesi bütün hallarda ictimaiyyətin ciddi-cəhdlə izlədiyi bir hadisədir. Orta məktəb imtahanlarından tutmuş, ali məktəb və doktorantura imtahanlarına qədər bu istiqamətdə yaşanan canlanma, olaylar diqqət mərkəzindədir. Son illər ali məktəblərə qəbul qaydalarında aparılan müəyyən dəyişikliklər şəffaflığın təmin edilməsinə hesablansa da, çox təəssüf ki, bəzən bu sahədə də neqativlərin olduğu diqqətdən yayınmır.**

# DİM-in test imtahanlarında "saxta əvəzedicilər" cinayəti - bu necə mümkün olur...

## *Məlahət Mürşüdlü: "Saxta abituriyentlər, sadəcə, başqasının yerinə imtahan verməyə cəhd edirlər"*



Bu neqativ hallardan biri başqasının yerinə imtahan verən insanlarla bağlıdır. Çox təəssüf ki, bəzi abituriyentlər əziyyət çəkib intahan vermək əvəzinə, müxtəlif şirnikləndirici vədlər qarşılığında başqasını öz yerinə imtahan verməyə cəlb edə bilir. Məlum olduğu kimi, indiyə qədər başqasının yerinə imtahan verən şəxslərlə bağlı bir neçə cinayət işi qaldırılıb və onların bu hərəkətinə hüquqi qiymət verilib.

Qeyd edək ki, hətta Konstitusiya Məhkəməsində də bununla bağlı prosesə baxılıb və başqasının yerinə imtahan vermək istəyənlərin hüquqi məsuliyyətinə dair fikirlər bildirilib.

Verilən məlumata görə, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq hüququ verən rəsmi sənədə qanunsuz olaraq başqasının adından digər şəxs tərəfindən məlumatların daxil edilməsi, onun əvəzinə imzalanması və s. hərəkətlər rəsmi sənədin saxtalaşdırılması kimi qəbul olunmalı, Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə tövsif edilməlidir. APA-nın məlumatına görə, bu, Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Konstitusiya Məhkəməsi Plenumunun qərarında əksini tapıb.

Cinayət Məcəlləsinin 320.1-ci maddəsində qeyd edilir ki, hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Konstitusiya Məhkəməsi Plenumunun qərarında qeyd edilib ki, Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədilə saxtalaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin edilməsini nəzərdə tutur ki, bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir, o, əsassız və qanunsuz olaraq hər hansı hüquq əldə edir və ya vəzifədən azad edilir, eləcə də hüquqlarının həyata keçirilməsi və ya vəzifələrinin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar əldə edir.

Bir müddət əvvəl Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş hüquq verən rəsmi sənədi saxtalaşdırma müddəasının şərh olunmasını xahiş edib.

Müraciətdən görünür ki, T.Alışanlının Cinayət Məcəlləsinin 29 və 320.1-ci maddələri ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə ittiham aktına əsasən, o, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə 26 iyul 2018-ci il tarixində keçirilən qəbul imtahanında abituriyent qismində iştirak etməli H.Quliyevin əvəzinə iştirak etməsinə dair təkliflə razılaşaraq, onun şəxsiyyət vəsiqəsini və imtahana buraxılış vərəqəsini əldə edərək imtahana gedib həmin sənədləri Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin (bundan sonra - Xüsusi Dövlət Mühafizə Xidməti) əməkdaşlarına təqdim edib. Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları tərəfindən T.Alışanlının H.Quliyev olmadığı müəyyən olunaraq imtahan zalına buraxılmasının qarşısı alınıb. Bununla da T.Alışanlı Dövlət İmtahan Mərkəzi tərəfindən H.Quliyevin adına kodlaşdırılmış, imtahan vermək və müvəffəqiyyət balı topladığı halda ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olunmaq hüququ verən rəsmi sənəd olan cavab kartına sonuncunun adından məlumatları yazmağa yönəlmiş əməlini öz iradəsindən asılı olmayan səbəbdən başa çatdıra bilməyərək rəsmi sənəd olan cavab kartını istifadə etmək məqsədilə saxtalaşdırmağa cəhd edib.

Mətbuatda yer alan müraciətedənin mövqeyinə görə, Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırmanın hansı hərəkətləri ehtiva etməsi konkret göstərilməyib. T.Alışanlı imtahana daxil olmaq üçün istifadə etdiyi sənədlərdə (şəxsiyyət vəsiqəsi və imtahana buraxılış vərəqəsində) hər hansı düzəliş və dəyişiklik etməmiş, habelə o, imtahanda iştirak etsə idi, cavab kartına H.Quliyevə aid məlumatları yazacaq və onun yerinə imtahan suallarını cavablandıracaqdı. Formal yanaşıldıqda T.Alışanlının cavab kartına yazacağı məlumatların yanlış olmadığı, məhz həmin cavab kartına yazılmalı olan məlumatlar olduğu müəyyən edilir. Bu baxımdan, T.Alışanlının qanunazidd davranışı özünü başqa şəxs, yəni H.Quliyev kimi təqdim etməsindən ibarətdir və bu əməldə Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş saxtalaşdırmanın mövcudluğu suallar yaradır.

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi T.Alışanlının qanunsuz olaraq başqa şəxsin adından həmin şəxsə aid olan məlumatların hüquq verən rəsmi sənədə daxil edilməsinin Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırma hesab olunub-olunmamasına hüquqi aydınlıq gətirilməsini xahiş edib.

Bundan başqa, Dövlət İmtahan Mərkəzinin (DİM) 2018-ci ildə keçirdiyi qəbul imtahanlarında başqasının yerinə imtahana girmək istəyən şəxslərin aşkarlandığı və barəsində cinayət işi qaldırıldığı məlumdur. Qeyd edək ki, həmin hadisə zamanı 2 şəxs aşkar olunub və DİM-in şikayəti əsasında Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində həmin abituriyentlərin bu hərəkətə yol verməsinə şərait yaradan şəxslərə qarşı cinayət işi başlayıb.

Saytların verdiyi məlumata görə, olayla bağlı Göygöl sakini Təbib Alışanlı və Gəncə sakini İbadət Novruzov cinayət məsuliyyətinə cəlb ediliblər. Mətbuatda qeyd edilir ki, həmin şəxslər rəsmi sənədləri saxtalaşdırmağa cəhd ediblər. Hər iki şəxs barəsində Cinayət Məcəlləsinin 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 178.2.3-cü (dələduzluq; şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) maddələri ilə cinayət işi başlanmışdı.

Məlumat üçün bildirək ki, DİM-in 2018-ci ilin aprel ayı ərzində keçirilən buraxılış imtahanlarında baş verən hadisələrlə bağlı yaydığı məlumatlara baxdıqda burada müxtəlif neqativ halları görürük.

Həmin dövrdə mətbuatda gedən məlumatda qurum tərəfindən bildirilirdi ki, 7, 14 və 21 aprel tarixlərində keçirilən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında sual kitabçalarının dəyişdirilməsi, mobil telefon aşkar olunması və digər səbəblərdən, ümumilikdə, 31 abituriyent imtahandan xaric olunub və onların nəticələri ləğv olunub. İlkin məlumatlara əsasən, aprelin 28-də keçirilən imtahanlarda da 17 nəfər tərəfindən qayda pozuntusu (5 - mobil telefon, 10 - sual kitabçalarının dəyişdirilməsi, 1 - çoxfunksiyalı elektron cihaz, 1 - başqasının yerinə imtahan binasına daxil olmağa cəhd ) halına rast gəlinib.

Bundan əlavə, başqa bir imtahan prosesində 3 nəfərin başqasının yerinə imtahan verməyə cəhd göstərməsi aşkarlanmışdı. DİM-dən bildirilirdi ki, imtahanda ciddi nöqsanlara yol verən bir neçə abituriyent aşkar edilib. Həmin dövrdə Dövlət İmtahan Mərkəzinin Təşkilati metodiki təminat və təlimlər sektorunun müdiri Adıgözəl Həbibov mətbuata bildirmişdi ki, başqasının yerinə imtahan vermək cəhdi ilə əlaqədar 3 fakt qeydə alınıb. Belə ki, həmin şəxslər üztanıma cihazı vasitəsilə aşkar edilərək imtahana buraxılmayıblar.

10 fevral 2019-cu il tarixində də analoji hadisə barədə mediada informasiyalar gedib. Hətta bunun sınaq imtahanlarında da baş verdiyinə dair məlumatlar var.

2019-cu ildə respublikanın müxtəlif təhsil müəssisələrində təşkil olunan qəbul imtahanında bu halların yaşanması faktları mövcuddur. Şəffaflığın təmin edilməsi məqsədilə DİM bir sıra addımlar atsa da, hər imtahanda xoşagəlməz hallara rast gəlinir. Bunlardan biri də hər hansı şəxsin abituriyentin əvəzinə imtahana daxil olması kimi situasiyadır ki, bununla bağlı artıq DİM böyük narahatlıq keçirir.

Dövlət İmtahan Mərkəzinin (DİM) yaydığı açıqlamada bildirilir ki, bəzi hallarda ədalətli şərtlər əsasında ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərin qanunsuz yollarla imtahanlardan müsbət nəticə əldə etməsinə cəhd hallarına da rast gəlinir: "Ötən illərin statistikasına nəzər salsaq imtahanlarda aşağıdakı qayda pozuntularının daha çox təkrar olunduğunu müşahidə edə bilərik: imtahana mobil telefonla daxil olmağa cəhd, köçürmək üçün müxtəlif əyani vəsaitlərdən istifadə, sual kitabçasını və cavab kartını dəyişmək, köçürməyə cəhd və imtahanda iştirak etməli olan abituriyentin əvəzinə başqa bir şəxsin imtahana gəlməsi. Məlumdur ki, hər bir imtahan nəticəsi elan olunarkən DİM tərəfindən imtahanda baş vermiş qayda pozuntuları haqqında da məlumat verilir və imtahanlardan xaric olunmuş abituriyentlərin sayı göstərilir, onların nəticələrinin ləğv olunması elan edilir.

Bu qayda pozuntuları hüquqi məsuliyyət yaradır və qanunvericiliklə adekvat tədbirlərin görülməsini tələb edir. Bunlardan ən əsası imtahanda iştirak etməli olan şəxsin əvəzinə başqa birinin imtahan verməsi və ya ona cəhd etməsidir. Bu, tələbə qəbulu qaydalarında da öz əksini tapıb. Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli, 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın 6.4-cü bəndində abituriyentin yol verməsi qadağan olunan hərəkətlər müəyyən edilib. Bu hərəkətlərdən biri məhz saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərməkdir.

Bütün bunlara qarşı Dövlət İmtahan Mərkəzi digər əlaqədar qurumlarla birlikdə müxtəlif tədbirlər həyata keçirir".

DİM-dən verilən məlumata görə, hələ ötən il Dövlət İmtahan Mərkəzi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış birgə araşdırmalar nəticəsində ali təhsil müəssisələrinə qəbul olunmaq üçün keçirilən imtahan zamanı bir sıra qanun pozuntularına yol verilməsinə cəhd halları aşkar edilərək qarşısı alınıb. O zaman müəyyən olunan faktlar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işlərinin istintaqı nəticəsində Nəsibov Müzadil Qərib oğlunun Cinayət Məcəlləsinin 320.1 (saxta sənədlərdən istifadə) və 29, 320.1-ci (saxta sənədlərdən istifadəyə cəhd), Rzazadə Ramazan Tofiq oğlunun 320.1 (saxta sənədlərdən istifadə etmə) və 29, 320.1-ci (saxta sənədlərdən istifadəyə cəhd), Alışanlı Təbib Natiq oğlunun isə həmin məcəllənin 29, 320.1-ci (saxta sənədlərdən istifadəyə cəhd) maddəsi ilə təqsirləndirilmələrinə dair cinayət işləri baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

DİM-dən verilən açıqlamaya görə, bundan sonra başqasının yerinə imtahan verənlərə qarşı cəzalar daha da sərtləşdiriləcək.

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü bildirdi ki, başqasının yerinə imtahan verən şəxslər əsasən müxtəlif ali məktəblərin tələbələridir. Onların maddi imkansızlıqdan bu addımı atdığını deyən M.Mürşüdlünün sözlərinə görə, bu işə çox zaman həmin gəncləri qəbul imtahanına gələn abituriyentin valideynləri vadar edir, nəticədə isə həmin gəncin də gələcəyi məhv olur. "Bilirsiniz ki, bizim ali məktəblərdə başqasının yerinə imtahan verməyə cəhd edən tələbələr dərhal aşkarlanır və onlara qarşı hüquqi müstəvidə tədbirlər görülür. Aydındır ki, bu cinayətə əl atan tələbənin hansısa bir abituriyentin yerinə imtahan verməyə cəhd göstərməsi, birmənalı olaraq, maddi qarşılıq müqabilində baş verir. Valideyn istəyir övladı ali məktəbə daxil olsun, amma onun övladının biliyi olmadığı üçün, ata-ana pul müqabilində başqa bir gənci övladının yerinə imtahan verməyə sövq edir. Başqasının yerinə imtahan verən gəncin bu addımı aşkarlanarkən o oxuduğu ali məktəbdən qovulur, barəsində cinayət işi qaldırılır. Sizə deyim ki, başqasının yerinə imtahan vermək istəyənlər prosesin ilk mərhələsindəcə aşkarlanır və imtahandan uzaqlaşdırılır. Bu gün DİM tərəfindən imtahanın təşkili o səviyyədə qurulub ki, burada baş verən qeyri-şəffaflığı dərhal aşkarlamaq mümkündür. Bizdə il ərzində üç-dörd belə fakt aşkarlanır və həmin faktlara da hüquqi qiymət verilir. Bu gün texnologiya o şəkildə inkişaf edib ki, o insanlar başqalarının yerinə imtahan verməyə cəhd etsələr də, sona qədər bu prosesin iştirakçısı ola bilmirlər. Saxta abituriyentlər, sadəcə, başqasının yerinə imtahan verməyə cəhd edirlər" - deyə M.Mürşüdlü qeyd etdi.

***İradə SARIYEVA***

# Gələn ildən tətbiq olunacaq icbari tibbi sığortada həkimləri narazı salan nədir...

**İcbari tibbi sığortanın tətbiqinə sayılı günlər qalır. Məlumdur ki, gələn ilin əvvəlindən Azərbaycanda səhiyyə xidmətləri sahəsində mühüm yeniliklər gözlənir. İcbari tibbi sığortanın tətbiqi bu sahədə xidmət görən və göstərən hər iki tərəfin maraqlarına xidmət etməlidir.**

*"Bir həkim 7-8 min maaş alıb, digəri kənarda qalacaqsa, bu, icbari tibbi sığorta yox, alver olar"*

***Adil Qeybulla:** "...həkimlər arasında peşəkarlığın artırılması, xəstəyə müştəri kimi baxılmaması mühiti yaradılmalıdır"*



İcbari tibbi sığortanın tətbiqi xəstələrlə yanaşı, həkimlərin də marağına səbəb olur. Həkimlər daha çox aylıq məvaciblərinin hansı səviyyədə olacaqları ilə maraqlanırlar.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin regional mərkəzlərlə iş şöbəsinin müdiri Şükür Eyvazov media nümayəndələrinə açıqlamasında bildirib ki, icbari tibbi sığorta tətbiq ediləcək tibb müəssisələrində maaşlar həkimin tutduğu vəzifə və təcrübəsinə uyğun, Vahid Tarif Cədvəlinə əsasən müəyyən olunacaq: "Həvəsləndirici əlavələr də olacaq. Əgər həkim rayon və kənddə işləyirsə, onun yaşadığı yerdən işlədiyi kənd məntəqəsinə qədər məsafə 15-20 kilometrə qədərdirsə, həvəsləndirici əlavə alacaq. Məsafə 20 kilometrdən yuxarıdırsa, ayrı həvəsləndirici əlavə tətbiq olunacaq. Ən əsası isə həkimin baxdığı xəstə sayına görə də əlavələr olacaq.

Ş.Eyvazov qeyd edib ki, pilot layihədə 7-8 min manat maaş alan həkimlər olub və bu, onların səhiyyənin qanunlarını aşmadan yüksək xidmət göstərməsi ilə bağlıdır.

İcbari sığortanın tətbiqindən sonra həkimlərin göstərdiyi xidmət, tibb müəssisələrində aldıqları maaş və iş təcrübəsinə uyğun əməkhaqqı alması həkimlərin narazılığına səbəb olub. Həkimlər bildirirlər ki, əməkhaqqı onların iş təcrübəsinə görə deyil, göstərdiyi xidmətə görə təyin olunmalıdır.

Professor Adil Qeybulla bildirdi ki, pilot layihənin nəticələrindən həkimlərin əksəriyyəti razı qalmayıb: "Səbəb isə icbari tibbi sığortaya xarakterik olmayan yanaşmalardır. İcbari tibbi sığorta ilə bağlı dünya təcrübəsindən yararlanmaq lazımdır. İcbari tibbi sığortada, ilk növbədə, fiksə olunmuş qiymətlər tətbiq edilməlidir. Məsələn, 1500-2000 ilkin maaş sistemi olmalıdır. İlkin maaş sistemi konkret normativlərə əsaslanmalıdır. Həkim 10 xəstəyə baxa bilər. Xəstələrin sayı 10-u ötərsə, əlavə ödəniş olur. Yəni növbədə 3 həkim var. Onların hərəsi 10 xəstəyə baxır. Əgər artıq xəstə gələrsə, yenə onlar arasında bölünür. Yoxsa, xəstələr bir həkimə yönəldilir və o, 7-8 min maaş alır, digərinə isə 220 manat maaş vermək olmaz. Ümumiyyətlə, yaxşı və pis həkim kimi ayırmalar yalnız bizim Azərbaycana məxsusdur. Bu cür yanaşmadan, təbii ki, həkimlər narazı qalacaqlar. Əgər sığortanın tətbiqindən sonra belə nəticələr ortaya çıxsa, vətəndaşa xidmət etməyəcək. Bir həkim 7-8 min maaş alıb, digəri kənarda qalacaqsa, bu, icbari tibbi sığorta yox, alver olar.

Əvvəlki sovet səhiyyəsi kimi olar. İcbari tibbi sığortanın tətbiqində, ilk növbədə, həkimlər arasında peşəkarlığın artırılması, xəstəyə müştəri kimi baxılmaması mühiti yaradılmalıdır".

***Günel CƏLİLOVA***

# Yasamal Bələdiyyəsinin saytında mərc oyunları baneri - necə olur bu...

**Azərbaycanda bələdiyyələr mövcud icra hakimiyyətlərinin beşinci təkəri funksiyasını oynadıqlarından cəmiyyətdə onlara diqqət də azdır. Seçkilər belə bələdiyyələri gündəmin baş mövzularından birinə çevirə bilmir. Bu səbəbdəndir ki, bələdiyyələr ictimai nəzarətdən də kənarda qalıb.**




***Proqramçı Səməd:** "Qeyd olunan saytın texniki tərəfinə nəzarət edən işçi işdən ayrıldığı üçün saytda belə bir problem yarana bilər"*

***Vüqar Tofiqli:** "Qeyri-fəal bələdiyyə saytları az deyil. Bunun da səbəbi maliyyə sıxıntısıdır"*

Dünya və onun bir parçası olan Azərbaycan informasiya texnologiyaları sahəsində inkişaf edərkən, onlayn bələdiyyəçilik anlayışı yox səviyyəsindədir. Elə bələdiyyələr var ki, onların saytı artıq neçə ildir yenilənmir. Halbuki, bu sahəyə dövlət tərəfindən müəyyən məbləğdə vəsait ayrılır. Ancaq buna rəğmən, bəzi bələdiyyə saytlarına nəzər yetirəndə ən azı bir il öncə sonuncu dəfə material yerləşdirildiyinin şahidi oluruq.

Elə bələdiyyə saytları da var ki, həmin saytlara daxil olan zaman, ilk növbədə, mərc oyunlarının təbliğatının aparılmasının şahidi oluruq. Belə bələdiyyə saytlarından biri də Yasamal Bələdiyyəsinə məxsusdur. Yasamal Bələdiyyəsinin rəsmi saytına (http://yasamalbelediyyesi.az) daxil olduqda, virtual mərc (qumar) saytına yönləndirilir. Ancaq, insafən, qeyd etmək lazımdır ki, Yasamal Bələdiyyəsi İT yenilikləri ilə bağlı digərlərinə nisbətdə daha çox inkişaf edib. Hətta internet reklamçılıq sahəsində də addım atıb. Adıçəkilən bələdiyyənin fəaliyyəti ilə tanış olmaq üçün ən azı 15 saniyə qumar saytının videosunu izləmək lazımdır.

Məsələ ilə bağlı Yasamal Bələdiyyəsi ilə əlaqə saxlamağa çalışdıq, lakin bu istəyimiz uğursuz oldu.

Yasamal Bələdiyyəsi saytının texniki təminatı ilə məşğul olan Səməd adlı proqramçı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, o, vaxtilə həmin saytı yığıb: "O vaxtlar biz saytı yeniləyirdik, materiallar, keçirilən tədbirlər əlavə olunurdu. Məlumat üçün bildirim ki, həmin saytın texniki təminatı ilə məşğul olmuram, çünki işdən ayrılmışam. Mən işdən çıxandan sonra bu iş qadın proqramçıya həvalə olundu. Məndə olan məlumata görə, həmin qadın da işdən ayrıldığı üçün, Yasamal Bələdiyyəsinin texniki tərəfinə nəzarət olunmur".

Bələdiyyə sahəsi üzrə ekspert Vüqar Tofiqli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, internet texnologiyalarının istifadəsi, saxlanması müəyyən məbləğdə maliyyə vəsaiti tələb etdiyindən, bəzi bələdiyyə saytlarında texniki problem yaşana bilər: "Elə bələdiyyə saytları var ki, onlarda İT sistemi yüksək səviyyədə inkişaf edib. Nəsimi Bələdiyyəsinin elektron saytında artıq onlayn ödəniş sistemi tətbiq edilib.

Həmsöhbətimiz onu da qeyd etdi ki, ölkədə 1607 bələdiyyə fəaliyyət göstərir, bu bələdiyyələrin fəal və qeyri-fəal saytları var. Qeyri-fəal bələdiyyə saytları az deyil. Bunun da səbəbi maliyyə sıxıntısıdır: "Yasamal Bələdiyyəsinin saytında qeydə alınan problem texniki xarakterlidir. Ola bilər ki, virus düşdüyü üçün sayt açılan kimi oyunların təbliği görünür".

***Günel CƏLİLOVA***

# Azərbaycan turizmində yeni etap - Bakıda və regionlarda 3 ulduzlu otellərin dövranı başlayır

**Azərbaycanın qədim tarixə malik olması, Xəzər dənizi sahilində yerləşməsi, tarixi abidələrlə zənginliyi, dünyanın 11 iqlim qurşağından 9-nun burada mövcudluğu və insanların qonaqpərvərliyi ölkəmizdə turizmin inkişafı üçün geniş imkanlar yaradır.**



***Rəhman Quliyev:** "Aşağı kateqoriyalı otellərin sayının artırılması Azərbaycana orta və aşağı büdcəli turistlər cəlb edilməsinə gətirib çıxaracaq"*

Bu sahədə daha ciddi nailiyyətlər əldə edilməsi, ölkəmizə gələcək turistlərin yerləşdirilməsi, onların rahatlığının, gəliş-gedişinin təmin olunması məqsədilə paytaxt Bakıda və ətraf rayonlarda çoxsaylı otel inşa edilib. Paralel olaraq nəqliyyat infrastrukturu müasir tələblər səviyyəsinə çatdırılıb. Bakı şəhərində beynəlxalq avtovağzal kompleksi, rayonlarda yeni avtovağzal binaları inşa edilib, Heydər Əliyev və Naxçıvan beynəlxalq hava limanları yenidən qurulub, Gəncə, Qəbələ, Lənkəran və Zaqatalada müasir hava limanları yaradılıb. Təbii ki, bütün bunlar vətəndaşlarımızın həyat şəraitini daha da yaxşılaşdırmağa xidmət etməklə yanaşı, turizm sektorunun inkişaf etdirilməsinə hesablanıb.

Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün çoxlu sayda iş görülür və görülməkdədir. İnfrastruktur gündən-gündən dəyişir, müasir tələblərə cavab verən istirahət mərkəzləri tikilib. Turistlərin rahatlığı üçün Bakı və regionlarda rəngarəng 4-5 ulduzlu otellər mövcuddur. Təbii ki, həmin otellərin qiyməti hər turistin büdcəsinə görə deyil. Bu səbəbdən də 2-3 ulduzlu otellərin tikilib istirahətsevənlərin ixtiyarına verilməsi dəfələrlə müzakirə olunub.

Məlumat üçün bildirək ki, hazırda Azərbaycanda 600-ə yaxın otel turistlərə xidmət göstərir. Həmin otellərin çoxu isə 4 və 5 ulduzludur. Ölkəyə gələn turistlərin sayının artması 3 və daha az ulduzlu otellərə tələbatı artırıb. Təkcə indiyə qədər Azərbaycan 3 milyondan artıq turist qəbul edib. Bu da, öz növbəsində, yerli sahibkarlarda və xarici investorlarda marağı artırıb.

Bu günlərdə Dövlət Turizm Agentliyinin nümayəndəsi media nümayəndələrinə açıqlamasında bildirib ki, Bakıda və regionlarda yeni otellər açılacaq. Qeyd olunub ki, sahibkarlarla danışıqlar aparılıb və həmin kateqoriyalı otellərin tikintisinə başlanıb. Dövlət bu sahədə biznesə dəstək verir və investorlar üçün müvafiq şərait yaradır: "Nəticə etibarilə, Azərbaycana gələn turistlərin sayının daha da artırılması baxımından dövlət 3 və ondan az ulduzlu otellərin istifadəyə verilməsində maraqlıdır".

Ekspertlər də hesab edirlər ki, qeyri-neft sektorunun əsas sahələrindən biri sayılan turizm sektorunun inkişaf etməsi üçün 2-3 ulduzlu otellərin tikilməsinə ehtiyac var.

Qeyd edək ki, xarici ölkələrdə nəinki 2-3 ulduzlu, hətta ulduzsuz otellər də var. Otellərin müxtəlif tipləri olur, məsələn, motellər, kempinqlər və s. Ümumiyyətlə, turizmin inkişaf etdiyi ölkələrdə bütün kateqoriyalı insanların tələbatını ödəyə biləcək hər cür otel tipləri olmalıdır. İnsanlar müxtəlif səviyyədə yaşadıqlarına və fərqli imkanları olduqlarına görə, təbii ki, otel tipləri də müxtəlif olmalıdır. Xarici ölkələrdə bu təcrübədən geniş yararlanırlar. Hətta elə otel tipli müəssisələr var ki, heç ulduz dərəcəsi də yoxdur. Amma qiymətləri ucuz olduğuna görə belə yerlərdə qalanlar çoxdur. Belə şərait onları qane edir. Analoji hal ölkəmizdə də tətbiq oluna bilər.

Bəllidir ki, 2-3 ulduzlu otellərin inşa olunması arzuolunandır. Bunun üçün, ilk növbədə, sahibkarların bu sahəyə marağını artırmaq lazımdır. İnvestorları 2 və 3 ulduzlu otellərin tikintisində maraqlı olması üçün stimullaşdırmaq lazımdır. Bunun üçün vergiqoymada da differensasiya edilməlidir. Yəni 2-3 ulduzlu otellərə vergi güzəştləri tətbiq edilməlidir.

Özəl sektor ayrı-ayrı regionlarda, eləcə də paytaxt Bakıda 2-3 ulduzlu otellərin tikintisinə önəm verməlidir. Bu halda qiymətlərdə kəskin endirimlər edilməli, ölkəmizə gəlməli olan potensial müştərilərin qonşu ölkələrə üz tutmasının qarşısını almaq olar. Həmçinin, turistlərin yerləşdirilməsi ilə əlaqədar mehmanxanalara heç bir qadağa tətbiq edilməməli, əksinə, öncədən bronlaşdırma üçün tədbirlər görülməli, reklam kampaniyaları aparılmalıdır.

Turizm üzrə ekspert Rəhman Quliyev bildirdi ki, Azərbaycanda 3 və daha az ulduzlu otellərin sayının artırılmasına ciddi ehtiyac var: "Çünki ölkədə əsasən bahalı turizm infrastrukturu yaradılıb. Bu isə orta və aşağı kateqoriyalı turistlərin ölkəyə gəlişinin qarşısını alır. Ancaq günün əsas tələbi ucuz, daha az ulduzlu otellərədir. 3 və daha az ulduzlu otellərin qiymətləri 4 və 5 ulduzlu otellərin qiymətləri ilə müqayisədə 50 faizə yaxın ucuz olur. Buna görə də aşağı kateqoriyalı otellərin sayının artırılması Azərbaycana orta və aşağı büdcəli turistlər cəlb edilməsinə gətirib çıxaracaq".

Ekspertin sözlərinə görə, qonşu Gürcüstanda otellərin 70 faizdən çoxunu 3 və daha aşağı ulduzlu otellər təşkil edir. Analoji hal ölkəmizdə də tətbiq oluna bilər.

*Günel CƏLİLOVA*

# Vergi ödəyicilərinin elektron kabineti nə deməkdir...

**Vergi inzibatçılığının təkmilləşdirilməsinin əsas elementlərindən birini vergi orqanı ilə vergi ödəyiciləri arasında birbaşa təmasın minimuma endirilməsi təşkil edir. Vergi ödəyicilərinin vergi orqanları ilə əlaqələrinin bütün mərhələlərdə elektron texnologiyalar üzərindən aparılması ilə bağlı sistemli, planlı, vahid mərkəzdən idarə olunan tədbirlər vergi ödəyicilərinin işini asanlaşdırmaqla bərabər, vaxt itkisinin də aradan qaldırılmasına şərait yaradıb.**




Elektron xidmətlərin tətbiqi vergi ödəyicisinin öz fəaliyyəti ilə bağlı istənilən məlumatı istənilən yerdən əldə etmək və ötürmək imkanına malik olmasına imkan verib. Bu baxımdan, vergi ödəyiciləri üçün yaradılmış elektron kabinetdən istifadə mühüm yer tutur.

Elektron kabinet nədir?

Elektron kabinet vergi ödəyicisinin Vergilər Nazirliyinin informasiya sistemində yaradılmış fərdi elektron səhifəsidir. Vergi ödəyicisi vergi orqanı tərəfindən verilən kod-parol və ya gücləndirilmiş elektron imza ilə bu səhifəyə daxil olaraq ona ünvanlanmış akt, protokol, qərar, müraciət (ərizə, sorğu, təklif və şikayət), tələbnamə, bildiriş, xəbərdarlıq, bəyannamə (hesabat), arayış, çıxarış və digər sənədləri oxuyur. Elektron kabinet vergi ödəyicisi ilə vergi orqanı arasında qarşılıqlı məlumat mübadiləsini təmin edir. Bu sistem vasitəsilə vergi ödəyicisinə ünvanlanmış sənədlər və məlumatlar kağız daşıyıcıda olan sənədə bərabər tutulur və hər iki sənəd eyni hüquqi qüvvəyə malikdir. Vergi Məcəlləsinə əsasən, sənədlər vergi orqanı tərəfindən vergi ödəyicisinin elektron kabinetinə göndərildikdə, göndərildiyi gündən 3 iş günü keçdikdən sonra lazımi qaydada çatdırılmış sayılır. Sənədlər vergi ödəyicisi tərəfindən təqdim edildikdə isə sənədin elektron üsulla göndərildiyi gün sənədlər tərəflərə çatdırılmış sayılır.

Elektron kabinetin üstünlükləri nədir?

Vergi ödəyiciləri elektron kabinet vasitəsilə vergi orqanına sənəd və məlumatları elektron üsulla göndərmək imkanı əldə edir. Bu, vaxt itkisini aradan qaldırır və ödəyiciyə istənilən məkandan operativ formada sənədlərini təqdim etmək imkanı yaradır. Bundan başqa, vergi ödəyicisi istənilən yerdə səhifəsinə daxil olaraq elektron kabinetdə uçot məlumatlarına, özünə məxsus olan sənəd və məlumatlara, habelə büdcə qarşısındakı öhdəliklərinə baxmaq və s. üstünlüklər əldə edir. Bu, həm də vətəndaşın rahatlığını təmin edir.

Elektron kabinet istifadə etmədikdə hansı risqlər yaranır?

Vergi ödəyicisi elektron kabinetinə göndərilən sənədlərlə vaxtında tanış olmadığı halda vergi qanunvericiliyində və inzibatçılığında baş verən dəyişikliklər, vergi orqanı tərəfindən ondan tələb olunan sənədlər, habelə bəyannamələr və ya bəyannamələrin kameral vergi yoxlamasının aparılması üçün təqdim olunmalı sənədlər və s. barədə məlumatlardan xəbərdar olmur. Vergi ödəyicisi tərəfindən məktublara operativ reaksiya verilməməsi isə gələcəkdə əlavə vergilərin hesablanması, bank hesablarına sərəncamların göndərilməsi, maliyyə sanksiyalarının və digər məsuliyyət tədbirlərinin tətbiq edilməsi ilə nəticələnə bilər.

Buna görə də mütəmadi olaraq vergi ödəyicilərinin elektron kabinetlərinə daxil olmuş sənədləri oxumaları tövsiyə edilir.

№ 224 (4122) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

17 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Adi su ağır böyrək xəstəliyini sağalda bilər...

**Adi su böyrəklərdə sağalmaz hesab edilən kistlərin və polikistozun müalicəsində xəstələrə çox kömək edə bilər.**

"Medicina.az" bildirir ki, Vestmid İnstitutunun alimləri yeni layihədə polikistozdan əziyyət çəkən pasiyentlər üçün sadə və ucuz vasitə tapdıqlarını elan ediblər. Anadangəlmə polikistoz xəstəliyinin hazırda müalicəsi yoxdur. Pasiyentlər kistlərin yaranması, böyüməsi və sağlam toxumaları dağıtması səbəbindən səhhətini və həyatını itirir. 50 faiz xəstələr sonda böyrək çatışmazlığı və dializlə üz-üzə qalır. Alimlər bu problemi çözmək üçün "Prevent" adlı layihəni başlayıblar. Araşdırmada məqsəd müəyyən qədər suyun qəbulunun polikistozun irəliləməsinə mane olmasını və böyrək çatışmazlığının qarşısını ala biləcəyini öyrənməkdir. Belə bir fikir var ki, adi su kistlərin böyüməsini azaldır və xəstələrdə ağırlaşmaları azaldır. Tədqiqata 240 polikistozlu könüllünü cəlb ediblər. Elmi nəticələr gələn ilə hazır olacaq. Amma hələ ki, alimlər sudan başqa bu xəstəliyə çarə olmadığını etiraf etmək üzrədir.



## Misirdə nadir tapıntı: sfinksin kiçik heykəli



**Misirli arxeoloqlardan ibarət qrup ölkənin Əl-Minya əyalətində sfinksin kiçik heykəlini aşkar ediblər. "Axar.az" xəbər verir ki, bu barədə Misirin Antik Əsərlər üzrə Nazirliyi bəyanat yayıb.**

Misirin antik işlər üzrə idarəsinin baş direktoru Qamal əs-Samastauinin sözlərinə görə, heykəl əhəng daşından hazırlanıb, onun hündürlüyü 35 sm, uzunluğu isə 55 santimetrdir. O, heykəlin aydın və gözəl cizgilərə və detallara malik olduğunu və bunun qədim misir heykəltaraşının ustalığının səviyyəsini əks etdirdiyini qeyd edib. Abidənin hansı dövrə aid olması barədə məlumat verilmir.

## İnsanları robotlar müayinə edəcək



**Türkiyənin səhiyyə sistemində robot həkimlər fəaliyyət göstərəcək.**

"Sputnik Azərbaycan" bildirir ki, bir müddət sonra bir çox ölkələrdə olduğu kimi Türkiyədə də xəstələri robotlar müalicə edəcək. Bununla bağlı Türkiyənin Səhiyyə Nazirliyi məlumat yayıb. Nazirliyin məlumatına görə, ilk belə müayinə 2020-ci ildə gerçəkləşəcək. Lakin hələlik bu proqramla bağlı digər detallar açıqlanmayıb. Hətta, robot həkim xidmətinin ilk olaraq hansı xəstəxanalarda gerçəkləşəcəyi haqda da heç bir məlumat yoxdur.

## Elan

Anar Yaşar oğluna aid olan şəxsiyyət, sürücülük vəsiqəsi və 01 CV 574 nömrəli avtomobilin texniki şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin II kurs, 1120-ci qrup tələbəsi Bədirxanova Nailə Səfalı qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Azercell"dən super prizlər və sürpriz hədiyyələr qazan!

**Ölkənin aparıcı mobil operatoru 23-cü ildönümü ilə əlaqədar hər kəsi xüsusi İnstagram yarışmasına dəvət edir.**

1996-cı il 15 dekabr tarixində, Azərbaycanın ilk GSM mobil operatoru - "Azercell Telekom" ölkənin keçmiş prezidenti Heydər Əliyev tərəfindən edilən ilk mobil zəngi ilə fəaliyyətə təkan verdi.

23-cü ildönümünü öz abunəçiləri ilə birgə qeyd etməyi arzulayan "Azercell" 15 dekabrda rəsmi İnstagram səhifəsi vasitəsilə xüsusi müsabiqə-viktorina elan edir. Müsabiqə yerli vaxtla 11.00-da başlayaraq, axşam 22.00-a qədər davam edəcək. Belə ki, hər 30 dəqiqədən bir İnstagramda "Azercell", onun məhsulları və xidmətləri ilə bağlı 23 sual yerləşdiriləcək və bu suallara ilk və düzgün cavab verən iştirakçılar şirkətdən hədiyyələr qazanacaqlar. 23 qeyri-adi super priz və 230 sürpriz hədiyyə öz sahibini gözləyir.

İnstagram profilinə sahib olan hər kəs yarışmada iştirak edərək suallara cavab verə və qalib gələ bilər. Daim yenilənən İnstagram səhifəmizi izləyin və 23-cü ildönümümüzdə bizdən müstəsna hədiyyələr qazanmaq şansını qaçırmayın:

https://www.instagram.com/azercell/

Azərbaycanda etibarlı və ən qabaqcıl mobil rabitə həllərini təqdim edən "Azercell" 23-cü ildönümü sevincini abunəçiləri ilə bölüşməkdən böyük məmnunluq duyur.

Daha ətraflı məlumat üçün aşağıdakı linklərdən yararlanmaq olar:

www.azercell.com

https://www.instagram.com/azercell/

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Ünsiyyətdə fəallıq artır, yeni tanışlıqlar mümkündür. Dost və qohumluq əlaqələri daha da möhkəmlənir. Günün ikinci yarısı münasibətlərdəki ahəngdarlıq pozulacaq, fikir ayrılıqları üçün xeyli səbəb yaranacaq.



**Buğa** - Günün əvvəlində sizə elə gələcək ki, uğur üzünüzə gülür və tezliklə nailiyyət qazanacaqsınız. Ancaq bir müddət sonra aydın olacaq ki, işlər, düşünüldüyü qədər də yaxşı deyil.



**Əkizlər** - Ciddi və məsuliyyətli iş görmək üçün elə də münasib olmayan, çətin gündür. Günün ilk yarısı diqqətinizi toplaya bilməyəcəksiniz. Heç nə alınmır, böyük səhvlər edir və bu səbəbdən əsəbləşirsiniz.



**Xərçəng** - Mənfi tendensiyaların güclü təsirinə baxmayaraq, səhər çağı müəyyən nailiyyətlər əldə edə bilərsiniz. Enerjiniz və sağlam düşüncəniz bütün işlərdə köməkçinizdir. Bunların sayəsində çətinlikləri aşa, səhvlərdən qurtula bilərsiniz.



**Şir** - Sövdələşmələr bağlamağa tələsməyin. Peşəkar və şəxsi məsələləri bir-birindən fərqləndirmək lazımdır. Şəxsi simpatiya və antipatiyanın iş yerində, iş yerinin problemlərinin isə evdə bir işi yoxdur.



**Qız** - Sürprizlərlə dolu gündür. Hətta arzulamağa belə cəsarət etmədiyiniz işlər baş verir. Öz gücünüzə inanın - uğur qazanmaq üçün bu çox vacibdir. Darıxmağa imkan olmayacaq: işləriniz çox və hər biri özlüyündə maraqlıdır.



**Tərəzi** - Günün birinci yarısı işləmək üçün yaxşı vaxtdır və sizə böyük uğurlar vəd edir. Vaxtında qəbul edilmiş düzgün qərar rəqiblərinizi qabaqlayaraq karyera pillələri ilə irəliləməyinizə imkan yaradacaq.



**Əqrəb** - İşdə problemlər sizin öz günahınız ucbatından yaranır, çünki işdən başqa hər şey barədə fikirləşirsiniz. Hesablarda səhv etməniz mümkündür, danışıqlarda pərtlik yarana bilər, həmçinin yerinə yetirə bilməyəcəyiniz vədlər verə bilərsiniz.



**Oxatan** - İntellektual potensialınız çox yüksəkdir. Bu da o deməkdir ki, öhdəsindən gələ bilməyəcəyiniz problem yoxdur. Eksperimentlərə hazırsınız və onlar dedikcə əla nəticələr verir.



**Oğlaq** - Gün məhsuldar sayılmasa da, çox yorucudur. Hər şey enerjinin azalması ilə əlaqədardır. Məhz onun ucbatından cari məsələlərə diqqəti cəmləmək, gələcək planları tam ciddiliyi ilə düşünmək mümkün olmur.



**Dolça** - Danışıqlar pis keçmir, ancaq nəzərə almaq lazımdır ki, əldə edilən razılaşmanı tam hesab etmək olmaz. Yeni iş ortağınız və ya rəhbərlik barədə isə dolğun və düzgün qənaətə gəlmək olar.



**Balıqlar** - Bu mürəkkəb gün hətta ən enerjili Balıqları da yoracaq. Nəinki öz problemlərinizi həll etməli, üstəlik, qohumlarınızın arasında yaranan fikir ayrılıqlarını da aradan qaldırmalı olursunuz - bu isə həddən artıq bezdirici işdir.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən bahalı ölkəsi

**"Eurostat"ın araşdırmalarına əsasən, Avropanın turizm baxımından ən bahalı ölkəsi İslandiyadır.**

O, bu sıralamada İsveçrə, Norveç və Danimarkanı geridə qoyur. Daha sonrakı yerlərdə isə İrlandiya, Lüksemburq, Finlandiya, İsveç, Böyük Britaniya və Niderland qərarlaşıb.

"Fins.az" bildirir ki, bu ada ölkəsində qiymətlər, qitədəkindən ən azı yarım dəfədən çoxdur. Məsələn, adi kafedə pendirli pizza 17 avro, bir qədəh şərab minimum 10 avrodur.

Burada iki nəfər üçün orta səviyyəli nahar 85 avroya (təxminən 170 AZN) başa gəlir. Bunun səbəbləri kimi adanın idxaldan çox asılı olmasını, eləcə də, alkoqol üzərinə yüksək vergilərin tətbiq olunmasını, həmçinin yerli valyutanın məzənnəsinin tez-tez "oynamasını" göstərirlər. İslandiyada orta aylıq əmək haqqı isə təxminən 4500 avrodur, yəni 9000 AZN.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.